1 aprel 2022 №25 (1898)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik"

Avropa İttifaqı tərəfindən elan edilmişdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistan Baş nazirinin mənimlə yeni görüşü olacaq. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri martın 31-də Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Prezident bildirib ki, artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq: "Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib".

Qeyd edək ki, aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək.

## Türk dünyasından Şuşaya yollar görünür

### Qədim Bursa "paytaxt" missiyasını qala-şəhərimizə təhvil verəcək

Xəbər verdiyimiz kimi, Türkiyənin Bursa şəhəri bu günlər türk ellərini bir araya gətirib. TÜRKSOY tərəfindən 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən şəhərdə bu münasibətlə silsilə törənlər təşkil edilib. Martın 30-da Bursada "2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin rəsmi açılışı olub. Martın 31-də isə TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının fövqəladə toplantısı keçirilib. Tədbirlərdə Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə nümayəndə heyəti də iştirak edib.




Martın 31-də, həmçinin Bursada Azərbaycan üçün çox əlamətdar bir qərar qəbul olunub. TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurası Şuşa şəhərini 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edib.

Xatırladaq ki, Türkiyənin ən qədim şəhərlərindən biri, Osmanlının ilk paytaxtı olmuş Bursa bu missiyanı 2021-ci ilin sonunda Özbəkistanın Xivə şəhərindən qəbul etmişdi, bu ilin sonunda isə estafeti Azərbaycan mədəniyyətinin beşiyi olan qala-şəhər Şuşaya təhvil verəcək.

"Bursa-2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin açılışı proqramı martın 30-da səhər saatlarında Osmanqazi və Orhanqazi türbələrinin ziyarət olunması ilə başlayıb. Sonra Türk dünyasının dörd bir yanından gələn nümayəndə heyətlərinin iştirakı ilə yürüş keçirilib. Onları yolboyu türk milli musiqisinin sədaları altında milli geyimdə olan oğlan və qızlar müşayiət ediblər. Yürüşdə Azərbaycandan rəqs qrupu da iştirak edib.

İştirakçılar şəhərin mərkəzi küçələrindən keçərək "Bursa-2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" koordinasiya mərkəzinin yerləşdiyi meydana gəliblər. Koordinasiya mərkəzi Bursanın tarixi tikililərindən olan Uzunçarşıda fəaliyyət göstərəcək.

Şəhərin mərkəzi meydanında təşkil olunan mərasimdə yerli rəqs qrupu çıxış edib.

Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş iştirakçıları salamlayaraq belə tədbirlərin türkdilli xalqların mədəni irsinin təbliği, qardaş xalqlar arasında mədəniyyət, incəsənət sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Bələdiyyə başqanı çıxışında Bursanın 2023-cü ildə estafeti Azərbaycanın Şuşa şəhərinə verəcəyini də açıqlayıb.

Sonra Novruz bayramının atributlarından olan tonqal qalanıb. Nümayəndə heyətlərinin rəhbərləri tonqal üzərindən atlanıblar, türk xalqlarının qədim ənənəsi – birlik və bərabərliyi simvolizə edən dəmirdöymə ayinini icra ediblər.

Sonra Bursada Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyun türk dövlətlərini təmsil edən heyət və Türk dünyası təşkilatlarının rəhbərləri ilə görüşü keçirilib.

***

Martın 30-da axşam Bursanın ən böyük qapalı arenası – Nilufer İdman Salonunda "2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin təntənəli açılış mərasimi olub.

Mərasimdə TÜRKSOY-da təmsil olunan ölkələrin nümayəndə heyətləri, həmçinin Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er və digər rəsmi şəxslər iştirak ediblər.

davamı səh. 2-də

## Mədəniyyət naziri Anar Kərimov Bursada görüşlər keçirib

Mədəniyyət naziri Anar Kərimov martın 30-da Bursa Böyükşəhər Bələdiyyə başçısı Alinur Aktaş ilə görüşüb. "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada olmaqdan məmnunluğunu bildirən nazir yüksək səviyyədə təşkil olunmuş tədbir və mərasimlərdə iştirak etməyin əhəmiyyətini xüsusi vurğulayıb. Qardaş ölkənin əsrarəngiz təbiətə, zəngin mədəni infrastruktura malik şəhərinin gözəlliyini dilə gətirən Anar Kərimov "Bursa-2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilində görüləcək işlər və qardaş ölkənin bu sahədə olan təcrübəsindən faydalanmağın əhəmiyyətindən danışıb.



Alinur Aktaş Bursanın Azərbaycan şəhərlərindən biri ilə gələcəkdə qardaşlaşmasını ürəkdən arzuladığını və bu sahədə işlərin aparılması üçün əlindən gələni etməyə hazır olduğunu bildirib.

***

Bursaya səfər çərçivəsində mədəniyyət naziri Anar Kərimovun Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyla da görüşü keçirilib.

Dəvət üçün qardaş ölkənin nazirinə təşəkkürünü bildirən Anar Kərimov mədəniyyətin müxtəlif sahələrində birgə əməkdaşlığın vacibliyini vurğulayıb.

Mehmet Nuri Ersoy öz növbəsində iki dost, qardaş ölkənin doğma münasibətlərindən, eləcə də çoxşaxəli əməkdaşlığın əhəmiyyətindən məmnunluğunu bildirib.

Görüşdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Türkiyənin Yunus Əmrə İnstitutu arasında birgə proqramın həyata keçirilməsi üzrə protokol imzalanıb.

## 1918-ci il soyqırımına ümumbəşəri cinayətlər kontekstindən yeni baxış

İstər XX, istərsə də XXI yüzillikdə təcavüzkar erməni millətçiləri xalqımıza qarşı milli-etnik zəmində kütləvi qətliamlar törətmiş, soyqırımı aktları həyata keçirmiş, bəşəriyyət əleyhinə qəddar və amansız cinayətlərə imza atmışlar. 1918-ci ilin mart soyqırımı da tarixin və xalqımızın hafizəsinə əbədi həkk olunmuş qan yaddaşıdır.

Bu fikirlər martın 30-da Qubada Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə keçirilən "Soyqırımı: ümumbəşəri cinayətlər kontekstində yeni baxış" mövzusunda elmi-praktik konfransda səslənib.

31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş konfransın iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.




Qonaqlara məlumat verilib ki, Quba soyqırımı məzarlığı 2007-ci ilin aprelində ərazidə torpaq işləri görülərkən aşkarlanıb.

Tədqiqatlar nəticəsində toplu məzarlığın 1918-ci ildə erməni silahlı dəstələrinin yerli əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Burada quraşdırılmış sensorlu ekrandakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

davamı səh. 3-də




## Heydər Əliyev Sarayında xeyriyyə konserti

Mayın 9-da Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Rəqs Ansamblının xeyriyyə konserti keçiriləcək.

"Mənim Azərbaycanım" adlı konsert Mədəniyyət Nazirliyinin təşkilatçılığı, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası və Heydər Əliyev Sarayının dəstəyi ilə reallaşacaq.

səh. 8

## Vyanada "Qarabağın ruhu – sülhə doğru uzun yol"

Martın 30-da Vyanada Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna (TƏF) sədrliyi çərçivəsində "Qarabağın ruhu – sülhə doğru uzun yol" adlı sərginin açılışı olub. Tanınmış fotojurnalist Reza Deqatinin fotolarından ibarət sərgi Azərbaycanın Qarabağ və ətraf ərazilərinin otuz ilə yaxın erməni işğalı altında qaldığı dövrü və azad edildikdən sonrakı vəziyyəti əks etdirir.




Vyananın mərkəzindəki qalereyalardan birində keçirilən tədbiri Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli açaraq qeyd edib ki, sərginin əsas məqsədi müharibənin dəhşətlərini göstərməklə yanaşı, gələcəyə baxmaq, sülhü təbliğ etməkdir. Reza Deqatinin fotoları münaqişələri və insan faciəsini əks etdirsə də, onlar həm də gələcəyə sönməz ümid ifadə edir.

Bildirilib ki, bu sərgi daha çox münaqişədən sonra öz ata-baba yurdlarına geri dönmək istəyən insanların əzmi, vətən sevgisi, quruculuq və Qarabağın dirçəlişinə həsr olunmuş bir fotoxronikadır. R.Deqatinin vizual hekayələri regionda sülh quruculuğuna töhfədir. Onun fotoları, münaqişənin törətdiyi dağıntıların miqyası və bir zamanlar qaynar həyatın hökm sürdüyü kənd və şəhərlərin yenidən dirçəldilməsi üçün tələb olunan səylər barədə ətraflı təsəvvür yaradır.

davamı səh. 8-də

## On bir ayın sultanı gəldi...

Aprelin 2-də İslam aləminin ən mübarək ayı olan Ramazan ayı başlanır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayının başlaması ilə bağlı fətva qəbul edib.

"Artıq ikinci ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son vermiş millət kimi qədəm qoyuruq. Qarabağa zəfər yürüşünün əzmlə sona çatması Rəhman və Rəhim Allahın lütfü və tarixi ədalətin bərpası oldu", – deyə fətvada bildirilir.

Qeyd olunur ki, Ramazani-şərif duaların qəbul olunduğu aylardandır. Mənəviyyat və əxlaqın zənginləşməsinə vəsilə olan oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur: "Orucluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən İlahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir".

Diqqətə çatdırılır ki, bu il də Qafqaz Müsəlmanları İdarəsi Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Təqvim idarənin saytında yerləşdirilib.

Şəkidə "Böyük Qafqaz incəsənət və rəqs kuboku" yarışması

səh. 4



Azərbaycan və Çin arasında klassik əsərlərin tərcüməsi və nəşri ilə bağlı memorandum imzalanıb

səh. 3



Çexovun "Qağayı"sı ilk dəfə bizim səhnədə

səh. 5

№25 (1898)
1 aprel 2022
www.medeniyyet.az

## "Şuşada görüşmək arzusu ilə ayrılırıq..."

TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının fövqəladə iclasından sonra brifinq keçirilib. Brifinqdən əvvəl iclasın yekun sənədi imzalanıb.



Yekun sənəddə TÜRKSOY-un yeni Baş katibinin seçilməsi, Şimali Kipr Türk Cümhuriyyətinin TÜRKSOY-un üzvlüyünə namizədliyi və Şuşanın 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi və s. məsələlər əksini tapıb.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy tədbirin uğurla başa çatdığını qeyd edib. Pandemiya bitdikdən sonra fəaliyyət dairəsinin daha da genişlənəcəyini söyləyən nazir deyib: "Şuşada görüşmək arzusu ilə sizdən ayrılırıq...".

Brifinqdən sonra üzv dövlətlərin mədəniyyət nazirləri TÜRKSOY-un sabiq Baş katibi Düsen Kaseinova hörmət və ehtiram əlaməti olaraq hədiyyələr və mükafatlar təqdim ediblər.

Biz Şuşanı, bu torpaqda böyüyüb başa çatan musiqiçiləri, mütəfəkkirləri dünyaya tanıtmalıyıq. Bütün türk dövlətləri Qarabağda aparılan bərpa və quruculuq prosesində iştirak etməkdə maraqlıdır.

Bu fikirləri artıq TÜRKSOY-un Baş katibi kimi vəzifəsini başa vuran Düsen Kaseinov söyləyib.

Azərbaycanın Zəfərindən qürurla danışan Düsen Kaseinov Şuşada həyatın yenidən canlanmasından məmnunluğunu ifadə edərək deyib: "Azərbaycanın uğuru bütün Türk dünyasının uğurudur. Biz daha da həmrəy olmalıyıq. Nəinki mədəniyyət sahəsində, iqtisadiyyat, elm, təhsil və digər istiqamətlərdə də bir-birimizdən dəstəyimizi əsirgəməməliyik".

D.Kaseinov 2023-cü il üçün Şuşanın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunmasından məmnunluğunu ifadə edib.

TÜRKSOY-un yeni Baş katibi Sultanbay Raev jurnalistlərə ilk açıqlamasında gələcək planlarından danışaraq əminliklə bildirib ki, 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilən Şuşa şəhərinin bütün dünyada geniş tanıtdırılması və sevdirilməsi üçün strateji mədəniyyət layihələri həyata keçiriləcək.

# TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının fövqəladə iclası

## Anar Kərimov: "Dünyada baş verən proseslər bizi daha sıx birləşməyə çağırır"



44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olan və öz dəstəyini əsirgəməyən bütün türk dövlətlərinə təşəkkürümüzü bildiririk. Dünyada baş verən proseslər bizi daha sıx birləşməyə çağırır. Müasir qloballaşmanın mənfi təsirlərindən qorunmaq üçün bu, çox vacibdir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov bu fikirləri martın 31-də TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının fövqəladə iclasında söyləyib.

"Mədəniyyət paytaxtı" layihəsinin Türk dünyasının mədəni irsinin qorunması və təbliği istiqamətində önəmini qeyd edən Anar Kərimov Bursa şəhərinin bu işə öz töhfəsini verəcəyini bildirib.

Anar Kərimov çıxışında TÜRKSOY-un həyata keçirdiyi layihə və tədbirlərin – rəssamların sərgilərinin, teatr tamaşalarının, festivalların, dahi şəxsiyyətlərin yubileylərinin – genişmiqyaslı fəaliyyət olaraq Türk dünyasının mədəni irsinə, əməkdaşlığın daha da dərinləşdirilməsinə töhfə olduğunu deyib.

Nazir TÜRKSOY-un mətbuat mükafatının əhəmiyyətini də vurğulayaraq, ötən il bu mükafatın Qarabağ həqiqətlərini dünyaya çatdıran jurnalistlərə təqdim olunduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyun sədrliyi ilə keçirilən iclasın açılışında Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Bursa valisi Yakup Canpolat, Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş, Qırğızıstan mədəniyyət, məlumat, idman və gənclər siyasəti naziri Azamat Camanqulov, Qazaxıstan mədəniyyət və idman nazirinin müavini Nurkissa Dauyeshov, Özbəkistan mədəniyyət nazirinin müavini Muradcan Məcidov, Şimali Kipr Türk Cümhuriyyəti Baş nazirinin müavini – turizm, mədəniyyət, gənclər və ətraf mühit naziri Fikri Ataoğlu, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və Macarıstanın İstanbuldakı Baş konsulu Laszlo Kellerin çıxışları da dinlənilib.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy TÜRKSOY-un ümumi mədəni dəyərlərə malik türk dövlətlərini birləşdirən təşkilat olduğunu və bugünkü tədbirin əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsini müzakirə etməyə imkan verəcəyini vurğulayıb.

TDT Baş katibi Bağdad Amreyev mədəniyyətin insanları birləşdirdiyini və TÜRKSOY-un bu ideyanı təşviq etməyə çalışdığını vurğulayıb. Bildirib ki, münasibətlərimiz tələbə mübadiləsindən tutmuş ali təhsil müəssisələrinin əməkdaşlığınadək müxtəlif səviyyələri əhatə etməlidir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışında TÜRKSOY-un reallaşdırdığı layihələrin Türk dünyası üçün əhəmiyyətini qeyd edib. G.Əfəndiyeva bildirib ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da, gənc təşkilat olmasına baxmayaraq, səmərəli fəaliyyət göstərir və bir sıra önəmli işlər görür. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etdiyini diqqətə çatdıran G.Əfəndiyeva Bursada "Şuşa İli"nin qeyd olunmasını təklif edib.

Türkmənistanın mədəniyyət naziri Atagəldi Şamuradov və Moldova Respublikası Qaqauz Yerinin Mədəniyyət və Turizm Baş İdarəsinin rəhbəri Marina Semionova iclasa videoformatla qatılıblar.

İclasda TÜRKSOY-un ötən dövrdəki fəaliyyətinə dair hesabatı dəyərləndirilib, təşkilati və cari məsələlər müzakirə edilib.

TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının Bursada keçirilən fövqəladə iclasında Şuşa şəhərinin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi ilə bağlı videotəqdimat olub.

Təqdimatda Qafqazın incisi Şuşa şəhərinin tarixi, mədəniyyəti, təbiəti, tarixi şəxsiyyətləri, 44 günlük Vətən savaşı sayəsində düşməndən azad edilən qədim türk yurdunda aparılan quruculuq və yenidənqurma işləri əksini tapıb.

TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının yekdil qərarı ilə Şuşa şəhəri 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilib.

### TÜRKSOY-un yeni Baş katibi seçilib

Qırğız Respublikasının namizədi Sultanbay Raev TÜRKSOY-un yeni Baş katibi seçilib. Sultanbay Raev 2013-2014-cü illərdə Qırğız Respublikasının mədəniyyət, informasiya və turizm naziri olub, 2020-ci ildən Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini vəzifəsində çalışıb.

Çıxış edənlər 15 ilə yaxın TÜRKSOY-a rəhbərlik etmiş Düsen Kaseinova fəaliyyətinə görə təşəkkürlərini ifadə ediblər.

İclasda Düsen Kaseinova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" təqdim olunub. Mükafatı Azərbaycanın mədəniyyət naziri Anar Kərimov təqdim edib. Qeyd edək ki, Düsen Kaseinov Prezident İlham Əliyevin 9 mart 2022-ci il tarixli sərəncamı ilə TÜRKSOY-da səmərəli fəaliyyətinə və təşkilatın üzv dövlətləri arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə təltif olunub.

# Türk dünyasından Şuşaya yollar görünür

## Qədim Bursa "paytaxt" missiyasını qala-şəhərimizə təhvil verəcək

əvvəli səh. 1-də

Mərasimdə açılış nitqi söyləyən Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş qonaqları salamlayıb. O, TÜRKSOY Daimi Şurasının ötən il Özbəkistanın Xivə şəhərində keçirilən iclasında Bursanın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsində rolu olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoya, eləcə də əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

"Bu gün köklü tarixi, zəngin mədəniyyəti olan Bursa üçün anlamlı bir gündür. Bu şəhər bir cahan dövləti – Osmanlının qurulduğu torpaqdır. Qədim tarixi ilə fərqli mədəniyyətlərin görüşdüyü Türkiyənin dördüncü böyük şəhəri Bursamızın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olmasının haqlı qürurunu yaşayırıq. Eyni zamanda bu şərəfli missiyanı daşımağın məsuliyyətini də anlayırıq" – deyən A.Aktaş il boyunca keçiriləcək maraqlı tədbirlər haqqında da iştirakçılara məlumat verib.

Qeyd edək ki, bu il Bursada 4-cü Dünya Köçəri Oyunları, 2-ci "Dədə Qorqud" Türk Dünyası Film Festivalı, 5-ci Türk Dünyası Əcdadlar İdman Festivalı, 3-cü Bursa Kitab Sərgisi kimi irimiqyaslı tədbirlər keçiriləcək.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov isə öz çıxışında rəhbərlik etdiyi qurumun fəaliyyətindən bəhs edib, "Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Baş katib TÜRKSOY-un fəaliyyətinə dəstək verən bütün qurumlara öz minnətdarlığını bildirib.

Bursa Valisi Yakub Canpolat qonaqları 2500 illik tarixi ilə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" şərəfinə nail olan Bursada görməkdən dərin məmnuniyyət duyduğunu dilə gətirib: "İnanıram ki, UNESCO-nun Dünya İrsi Siyahısında yer alan Bursa bu missiyanın da öhdəsindən uğurla gələcək. Bursa Türk dünyasının tarixini, sultanları, xaqanları bağrında gələcəyə daşıyan torpaqdır. Bursa Bakı, Astana, Bişkek, Daşkənd, Aşqabaddır. Ən əsası, 2022-ci ildə Türk dünyasının qəlbinin döyünəcəyi şəhərdir...".









Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev də çıxışında "Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsinə toxunaraq, onun həm də Türk dünyasının tanıdılması adına önəmli bir təşəbbüs olduğunu diqqətə çatdırıb: "Mədəniyyət önəmli sahədir. Çünki türk xalqları tarixən mədəniyyət təməlində bir araya gəlmişdir. Bu mənada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY quruldu. Bizim qardaş ölkələrdən gələn heyətlərlə Novruzu qeyd etməyimiz də təqdirəlayiqdir...".

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy Osmanlının ilk paytaxtı Bursada qonaqlarla bir arada olmaqdan qürur duyduğunu bildirib: "Baharın başladığı, torpağın oyandığı Bursada "Türk Dünyasının Mədəniyyət Paytaxtı" ilinin açılışı həm də dostluq, qardaşlıq, ortaq dəyərlərimizə sahib çıxmanın nümunəsidir. Bursa sahib olduğu tarixi və təbii gözəlliyi ilə, zəngin mədəniyyəti ilə bu missiyanın öhdəsindən uğurla gələcək. Bir il boyunca keçiriləcək tədbirlərin ilki olan bu tədbirdə hər kəsə uğurlar arzu edirəm...".

Nazir qeyd edib ki, bu gün dünyada baş verən savaşlara görə milyonlarla insanın öz vətənini tərk etdiyi bir vaxtda baş tutan bu tədbir çox anlamlıdır: "Prezident Ərdoğanın dediyi kimi, bizim əcdadımız arxasında körpü, məscid, mədrəsə, mürəkkəblə inşa edilən mədəniyyət buraxdı. İnanıram ki, bu layihə türk xalqlarını bir araya gətirəcək...".

Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxışında Türk dünyasının getdikcə daha da böyüdüyünü vurğulayıb: "Bu coğrafiyada bir olacağıq, diri olacağıq, güclü olacağıq və birlikdə Türk dünyası olacağıq. Bir sözlə, qardaşlığımızı gözümüzün içi kimi qoruyacağıq. Çünki bir olsaq, kimsə bizə mane ola bilməz...".

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar isə tədbirdə iştirak etməkdən məmnun olduğunu bildirib: "Ürəyimiz, taleyimiz, könlümüz birdir. Bursa Türk tarixində gözəlliyi, tarixi zənginliyi, ticarəti ilə müstəsna bir şəhərdir və 2022-ci il boyunca bu xüsusiyyətlərə malik olduğu isbatlanacaq".

Mərasim Türk dünyası sənətçilərinin təqdimatında möhtəşəm konsert proqramı ilə davam edib. 20 ölkədən solist və bədii kollektivlərin – ümumilikdə 700-dək sənətçinin qatıldığı konsertdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının çıxışı da alqışlarla qarşılanıb.

Sonra Düsen Kaseinov "Türk Dünyasının Mədəniyyət Paytaxtı"na ev sahibliyinin rəmzini Bursa Böyükşəhər Bələdiyyə başqanına təqdim edib.

Xatırladaq ki, 2020-ci ilin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilmiş Xivə şəhərində bu mərasim pandemiya səbəbindən ertələnərək 2021-ci ildə keçirilmişdi.

Beləliklə, TÜRKSOY-un 2012-ci ildən həyata keçirilən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsinin xəritəsi Astana (Qazaxıstan), Əskişəhər (Türkiyə), Kazan (Tatarıstan), Marı (Türkmənistan), Şəki (Azərbaycan), Türküstan (Qazaxıstan), Kastamonu (Türkiyə), Oş (Qırğızıstan) və Xivədən (Özbəkistan) sonra Bursa adı ilə işıqlanacaq... Sırada isə Şuşa var...

**Mehparə Sultanova**

## İCESCO ilə UNESCO arasında əməkdaşlıq müzakirə olunub

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik və UNESCO-nun Baş direktoru Odri Azule iki qurum arasında əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

İCESCO-nun baş ofisindən bildiriblər ki, Mərakeşin paytaxtı Rabat şəhərinin 2022-ci ildə "İslam Mədəniyyəti Paytaxtı" elan edilməsi çərçivəsində keçirilən görüşdə iki təşkilat arasında 2019-cu ilin noyabrında imzalanmış sazişin müddəalarının yerinə yetirilməsi müzakirə olunub. Tərəflər gənclərin dünyada sülhün bərqərar olması üzrə təlimlərdə iştirakı, sivilizasiyalar arasında dialoq ilə bağlı birgə tədbirlərin təşkili, süni intellekt sahələrində tədqiqatların aparılması, İslam irsinin qorunması və təbliği və s. məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

İCESCO rəhbəri təşkilatın bu yaxınlarda nəşr etdirdiyi "Sülh imkanlarının kəşf edilməsi" kitabını O.Azuleyə hədiyyə edib.

## UNESCO İcraiyyə Şurasının 214-cü sessiyası

Martın 30-da Parisdə UNESCO-nun üç əsas orqanından biri olan İcraiyyə Şurasının 214-cü sessiyası işə başlayıb.

Aprelin 13-dək davam edəcək sessiyanın gündəliyində İcraiyyə Şurasının 212-ci və 213-cü sessiyalarının protokollarının təsdiqlənməsi, İcraiyyə Şurasının daxili nizamnaməsinin 59-cu maddəsinin tətbiqinə dair Baş direktorun hesabatının dinlənilməsi, UNESCO Baş Konfransının qəbul etdiyi proqramın icrası, 2020-2021-ci illər üçün maliyyə idarəçiliyinə dair hesabat, İcraiyyə Şurasının və Baş Konfransın əvvəlki iclaslarında qəbul edilmiş qərar və qətnamələrin monitorinqi, təhsil və mədəniyyət sahələri ilə bağlı məsələlər yer alıb.

Həmçinin sessiya çərçivəsində bir çox mühüm məsələlərlə yanaşı, irqçilik və ayrı-seçkiliyə qarşı mübarizə üzrə qurumun yol xəritəsinin həyata keçirilməsi kimi məsələlərə də toxunulacaq. Üzv dövlətlərin irqçilik və ayrı-seçkiliyə qarşı mübarizə üzrə təşkilatın təşəbbüslərini dəstəkləməyi davam etdirməsi, eləcə də bu istiqamətdə təşkilatla davamlı dialoqu inkişaf etdirmək məsələləri də müzakirə olunacaq.

Qeyd edək ki, İcraiyyə Şurası hər biri dörd il müddətinə seçilən 58 üzv dövlətdən ibarətdir. Azərbaycan 2021-ci ildə İcraiyyə Şurasına üzv seçilib.

əvvəli səh. 1-də

# 1918-ci il soyqırımına ümumbəşəri cinayətlər kontekstindən yeni baxış

## Qubada keçirilən elmi-praktik konfransda bu barədə söhbət açılıb

"Quba Palace Hotel"də işə başlayan elmi-praktik konfransda YAP sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək 1918-ci ilin mart soyqırımı, ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı həyata keçirdiyi qırğınlardan danışıb. Qeyd edib ki, bu qırğınların ən irimiqyaslısı 1918-ci ildə həyata keçirilib. Sıralarında çoxlu sayda erməni millətçilərinin cəmləşdiyi Bakı Kommunası "əks-inqilabçılara qarşı mübarizə" şüarı altında 1918-ci ilin martında Bakıda, eləcə də Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəran və digər yerlərdə dinc əhaliyə qarşı soyqırımı törədiblər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olub.

Xalqımızın qan yaddaşının yaşadılması və tarixi həqiqətlərin dünyaya çatdırılmasından bəhs edən Tahir Budaqov xatırladıb ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla 1918-ci ilin mart soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət verilib. Diqqətə çatdırılıb ki, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamına əsasən 2018-ci ildə genişmiqyaslı tədbirlər keçirilib. YAP sədrinin müavini Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin bu tarixin yaşadılması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev "Soyqırımı Memorial Kompleksi: azərbaycanlılara qarşı törədilmiş soyqırımların qan yaddaşı kimi" adlı məruzə ilə çıxış edib. Bildirib ki, kompleksdə yalnız Quba qəzasında deyil, 1918-ci ildə ölkəmizin digər yerlərində törədilmiş soyqırımına dair məlumatların əks olunduğu sənədlər də saxlanılır.





Baş prokurorun 1-ci müavini Elçin Məmmədov "Azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri: istintaq və nəticələri" mövzusunda məruzəsində qeyd edib ki, soyqırımı ilə bağlı ötən illər ərzində aparılan araşdırmalar nəticəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edir.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov "Erməni millətçiliyi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti" adlı məruzə ilə çıxış edib. Məruzəçi Birinci Qarabağ müharibəsi dövründə erməni millətçiləri tərəfindən törədilən insanlıq əleyhinə cinayətlərdən də söz açıb. Bu sırada Xocalı, Başlıbel, Ballıqaya, Ağdaban, Meşəli, Cəmilli, Quşçular, Malıbəyli faciələri xüsusi qeyd olunub. Bildirib ki, Birinci Qarabağ müharibəsində itkin sayılan 4 minədək soydaşımız barədə hələ də məlumat yoxdur. 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunmasından sonra Kəlbəcərin Başlıbel, Şuşanın Daşaltı, Xocavəndin Edilli kəndləri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu məzarlıqlar, meyit qalıqları Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən əsir və girov götürülərək, ağır işgəncələr verilərək qətlə yetirilən Azərbaycan vətəndaşlarına aiddir.

Nazir müavini vurğulayıb ki, bu günlərdə Xocalının Fərrux yüksəkliyində də insan sümükləri aşkarlanıb və həmin qalıqların da tədqiqatı həyata keçiriləcək.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli konfransda "Erməni vəhşiliyi tarixin yaddaşında: dağıdılmış və yandırılmış tarixi abidələr" mövzusunda çıxış edib. Dövlət Xidmətinin rəisi bildirib ki, erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olub. İşğaldan azad olunmuş ərazilərdəki məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılıb, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilib: "Bu baxımdan Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır".

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti rəisinin sözlərinə görə, Ermənistan tərəfinin vandalizmi yalnız müsəlman tarixi dini-memarlıq abidələrinə deyil, həmçinin xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərib. Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları da daxil olmaqla, Qafqaz Albaniyasına aid bir çox məbədlər mənimsənilərək vandalizmə məruz qalıb. Xudavəng monastırına aid Arzu xatın kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülüb. Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri nəticəsində onun əzəli görkəminə zərər dəyib.

Konfransda Türkiyənin Azərbaycandakı səfirinin müavini Tuğba Sarıyönlü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov da çıxış ediblər.

Tədbirin sonunda elmi-praktik konfransın iştirakçıları adından bəyanat qəbul olunub.

***

Azərbaycanlıların soyqırımının 104-cü ildönümü ilə bağlı martın 31-də Quba Soyqırımı Memorial Kompleksində anım mərasimi keçirilib.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən təşkil olunan tədbirdə rəsmilər, Milli Məclisin deputatları, diplomatik korpusun və dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları Quba Soyqırımı Memorial Kompleksində foto və kitab sərgisi ilə tanış olublar.

Tədbirin açılışında Quba Uşaq musiqi məktəbi şagirdlərindən ibarət xorun ifası dinlənilib.

Dövlət Xidmətinin rəisi Azad Cəfərli ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi bəşəri cinayətlərdən danışıb.

Daha sonra Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru Abbas Seyidov çıxış ediblər.

Tədbirin sonunda azərbaycanlıların soyqırımına həsr olunmuş sənədli film nümayiş olunub.

# Bakıda Braziliya Film Festivalı keçirilir

Martın 30-da Nizami Kino Mərkəzində Braziliya Film Festivalının açılış mərasimi olub.






Festival Mədəniyyət Nazirliyi və Braziliyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə keçirilir.

Açılış mərasimində Braziliyanın ölkəmizdəki səfiri Manuel Monteneqro çıxış edərək bildirib ki, festival Azərbaycan tamaşaçısını Braziliya cəmiyyəti və orada çəkilən filmlərlə bağlı məlumatlandırmaq üçün gözəl fürsət yaradır.

Vurğulanıb ki, nümayiş olunacaq filmlər ən çox mükafat qazanmış ekran əsərləridir. Filmlər insanlardan, onların maraq və düşüncələrindən, sevgi əhvalatlarından bəhs edir.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Braziliya-Azərbaycan münasibətlərində maraqlı məqamlardan danışıb. Bildirib ki, hər iki ölkənin kino tarixi 1898-ci ildə başlayıb. Bu il Braziliya öz müstəqilliyinin 200-cü ildönümünü qeyd edir. Bu il, həmçinin iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. Bu mənada Bakıda Braziliya Film Festivalının keçirilməsi hər iki ölkənin mədəniyyətinə bir töhfədir.

Festivalın ilk filminin nümayişindən əvvəl Azərbaycan Kapoeyra Federasiyasının idmançıları performans göstərib.

Sonra "Qalib gəlmək üçün 10 saniyə" filmi nümayiş olunub. Film ötən əsrin 60-70-ci illərində boks üzrə ikiqat dünya çempionu olmuş braziliyalı Eder Jofrenin bioqrafiyasından bəhs edir.

Braziliya Film Festivalı aprelin 3-dək Nizami Kino Mərkəzində davam edəcək. Festivalın proqramına 4 bədii və 1 sənədli film daxildir.

# "Alınan qisas"

## İstiqlal Muzeyində Soyqırımı Günü ilə bağlı tədbir



Martın 31-də Azərbaycan İstiqlal Muzeyində "Alınan qisas" adlı tədbir keçirilib.

Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan tədbirdə Bakı 3 saylı "ASAN Xidmət" Mərkəzinin əməkdaşları, Azərbaycan Dövlət Sərhəd Xidməti Xüsusi məktəbinin kursantları və digər qonaqlar iştirak ediblər.

Tədbirdə Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsi Sərgi və qalereyalar sektorunun müdiri Aqşin Mirfeyzullazadə, İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli, sənətşünas, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev və rəssam Nazim Məmmədov çıxış ediblər.

Qeyd olunub ki, bədnam ermənilərin tarix boyu xalqımıza qarşı həyata keçirdiyi qırğın və talançılıq siyasətinin ən qanlı səhifəsi 1918-ci ilin mart soyqırımıdır. Həmin dövrdə erməni-bolşevik silahlı quldur dəstələri tərəfindən Bakı ilə yanaşı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə dinc azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın və talançılıq törədilib. Bu dəhşətli faciə nəticəsində minlərlə dinc sakin qətlə yetirilib, şəhər və kəndlər yandırılıb, tarixi mədəniyyət abidələri dağıdılaraq məhv edilib.

Bildirilib ki, ötən əsrdə dörd dəfə – 1905-1906, 1918-1920, 1948-1953 və 1990-cı illərin əvvəllərində havadarlarının dəstəyi ilə ermənilərin xalqımızın başına gətirdiyi müsibətlər, soyqırımı və deportasiyalar heç zaman unudulmayacaq.

Vurğulanıb ki, uzun illərdən sonra tarixi ədalət bərpa olunub, Azərbaycan bütün dünyaya siyasi, iqtisadi və milli birlik gücünü sübut edib. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Ordumuzun rəşadəti və xalqımızın birliyi ilə 44 günlük Vətən müharibəsində tarixən xalqımıza qarşı törədilən bütün amansız cinayətlərin qisası düşməndən döyüş meydanında alınıb. Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfəri yaşamaqla bərabər, bu yolda canını fəda edən igid oğulların və günahsız qurbanların əziz xatirəsini xalqımız daim qəlbində yaşadacaq.

Çıxışlardan sonra "Leonardo da Vinçi" beynəlxalq mükafatının laureatı, rəssam Nazim Məmmədovun İstiqlal Muzeyinə hədiyyə etdiyi "Məhşər günü" rəsm əsərinin təqdimatı olub. Sonda rəssama İstiqlal Muzeyinin fəxri fərmanı verilib.

**Nurəddin**

# Azərbaycan və Çin arasında klassik əsərlərin tərcüməsi və nəşri

## Anlaşma memorandumu imzalanıb

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mətbuat və Nəşriyyat Milli Administrasiyası arasında klassik əsərlərin tərcüməsi və nəşri barədə anlaşma memorandumu imzalanıb.

Əldə edilmiş razılığa əsasən, sənəd 30 mart 2022-ci il tarixində onlayn formatda Bakıda Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat şöbəsi rəhbərinin müavini Can Cyançun tərəfindən imzalanıb.

Anlaşma memorandumunun məqsədi növbəti beş il ərzində hər iki ölkədə klassik və mühüm əsərlərin qarşılıqlı şəkildə tərcümə və nəşrinə dəstək göstərməkdir. Sənədə əsasən, hər iki ölkədə razılaşdırılaraq seçiləcək əsərlər müvafiq olaraq Azərbaycan və Çin dillərinə tərcümə olunaraq çap ediləcək.

# Respublika Gənclər Kitabxanasında anım tədbiri

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib.



Kitabxananın direktoru Aslan Cəfərov tədbiri açaraq 1918-ci il soyqırımının tarixindən bəhs edib, ulu öndər Heydər Əliyevin vaxtilə bu barədə söylədiyi "Soyqırımı haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir" sözlərini xatırladıb.

Elmi işlər üzrə direktor müavini Xalidə Musayeva, kitabxananın əməkdaşları erməni millətçiləri tərəfindən zaman-zaman Azərbaycan xalqına qarşı kütləvi qırğınlar, etnik təmizləmə həyata keçirilməsi, Qubada, Şamaxıda, digər bölgələrdə törədilən qətliamlardan danışıblar.

Tədbirdə mövzu üzrə videoçarx, virtual kitab sərgisi nümayiş olunub, "Tarixin qan yaddaşı" daycesti təqdim edilib. Sonra mövzuya dair kitab sərgisinə baxış keçirilib.

# İcbari tibbi sığorta sahəsində məlumatlılığı artırmaq məqsədilə təlim

Mədəniyyət Nazirliyinin strukturuna daxil olan qurumlarda və sturukturuna daxil olmayan tabeliyində olan qurumlarda çalışan əməkdaşlar üçün martın 30-da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova tərəfindən təlim keçirilib.

Təlimin məqsədi icbari tibbi sığorta sahəsində məlumatlılığı artırmaqdır.

Beynəlxalq Muğam Mərkəzində keçirilən təlimdə öncə icbari tibbi sığorta haqqında ümumi məlumat verilib. Sonra icbari tibbi sığorta haqları, xidmət zərfində yer alan tibbi xidmətlər, özəl tibb müəssisələrində sığorta çərçivəsində tibbi xidmətdən istifadə qaydaları, İTSDA-nın müqaviləsi olan özəl tibb müəssisələrinin siyahısı və icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilmə qaydası izah edilib.

Təlim sonunda iştirakçılarının mövzu üzrə sualları ekspert tərəfindən cavablandırılıb.

# Fərrux yüksəkliyində tapılan meyit qalıqları ekshumasiya olunacaq

## Birinci Qarabağ müharibəsində burada 62 hərbçimiz itkin düşmüşdü

Vətən müharibəsində əldə edilmiş Zəfərdən sonra Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən edilməsi və ekshumasiyası işləri davam etdirilir.

Bu barədə Azərbaycan Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.

Bildirilir ki, bu istiqamətdə aparılmış növbəti tədbirlər zamanı, 28 mart 2022-ci il tarixdə Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində bir neçə insana aid naməlum meyit qalıqları aşkarlanmışdır.

Adıçəkilən yüksəklik uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir. Tapılmış meyit qalıqları ərazidən götürülərək müvafiq ekspertizanın aparılması üçün aidiyyəti üzrə təhvil veriləcək.

Məlumatda diqqətə çatdırılır ki, Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda döyüşlərdə 62 nəfər Azərbaycan hərbçisi itkin düşmüş şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyata alınıb. Eyni zamanda Dövlət Komissiyasında toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin yaxınlığında yerləşən, Xocalı rayonu Pirlər kəndində 46 nəfər, Ağdam rayonu Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşüb.

Fərrux yüksəkliyində və ətrafında kütləvi məzar yerlərinin olması ehtimalı nəzərə alınaraq, mütəxəssislərdən ibarət heyət tərəfindən ərazidə axtarış və müvafiq ekshumasiya tədbirlərinin aparılması planlaşdırılır. Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcək.

# Şamaxıda Nizami irsinə həsr edilmiş təqdimat



İsmayıllı RMİ Şamaxı rayon Mədəniyyət Mərkəzi və Şamaxıda fəaliyyət göstərən "Məhsəti Şairlər Məclisi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvinin ədəbi irsinin təbliği" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Mehriban Eyyubova, Xalq artisti, professor İlham Namiq Kamal, Azərbaycan Dövlət Pedaqoji Universiteti Şamaxı filialının rektoru Tünzalə Yusifova, ictimai birliyin sədri Cavahir Qaraqızı dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilən parlaq və zəngin irsindən söz açıblar.

Sonra iştirakçılara Şamaxı Xalq teatrının, xanəndələrin və məktəblilərin ifasında Nizami əsərləri əsasında hazırlanmış musiqili kompozisiyalar təqdim olunub.

# Masallıda yeni musiqi kollektivi



Masallıda yeni musiqi kollektivi təşkil edilib. "Cənub incisi" adlanan vokal-instrumental ansamblın tərkibi rayonda fəaliyyət göstərən istedadlı mədəniyyət işçilərindən ibarətdir.

Repertuarı xalq mahnıları, muğam, estrada, eləcə də digər musiqi janrlarını əhatə edən ansambl Masallı Regional Mədəniyyət İdarəsi və N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək bayram və əlamətdar günlərdə, digər mədəni-kütləvi tədbirlərdə çıxış edəcək.

**Zəfər Orucoğlu**

# Tarixin qan yaddaşı – mart soyqırımı

Tariximizin ən qanlı səhifələrindən olan 1918-ci ilin mart qırğınlarından 104 il ötür. Bu münasibətlə regional mədəniyyət idarələrinin əhatə etdiyi müəssisələrdə müxtəlif tədbirlər keçirilib.




Ağcabədi Regional Mədəniyyət İdarəsi (RMİ) Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində keçirilən "Unudulmaz faciə" adlı tədbirdə muzeyin direktoru Sahib Məmmədov və Ağdam Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov çıxış edərək soyqırımının ağır nəticələrindən söz açıblar. Sonra məktəblilər hərbi-vətənpərvərlik ruhunda şeirlər söyləyib, muzey tərəfindən mart soyqırımı ilə bağlı hazırlanmış videoslayd nümayiş etdirilib.

***

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Yaddaşlara həkk olan qətliam" mövzusunda elmi-praktik konfrans keçirilib. Mərkəzin əməkdaşları Mədinə Rzayeva və Vəfa Zamanova mövzu ilə bağlı çıxış ediblər. Sonra mart qırğınına həsr olunmuş "Sündü" qısametrajlı filmi nümayiş etdirilib.

***



Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə "Mart soyqırımı bəşəri cinayətdir" adlı anım tədbiri keçirilib. MKS-nin direktoru Saməddin Nəsirov və Quba Soyqırımı Memorial Kompleksinin Elmi araşdırmalar, ekspozisiya və fond şöbəsinin müdiri Lətafət Beybutova çıxış ediblər. Tədbirin sonunda "31 mart – Azərbaycanlıların Soyqırımı Günüdür" adlı sərgiyə baxış olub.

***

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Şamaxı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Azərbaycanlıların Soyqırımı Günü münasibətilə yığıncaq keçirilib. Tədbirdə ermənilərin törətdikləri vəhşiliklərdən bəhs edən 18 dəqiqəlik qısametrajlı film nümayiş olunub.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində isə "Tarixin qanlı salnaməsi" adlı kitab sərgisi təşkil edilib.

***

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən anım tədbirində tariximizin bu qanlı səhifəsinə həsr olunan mühazirə təqdim edilib. Mərkəzdə ermənilərin xalqımıza qarşı törətdikləri cinayətləri əks etdirən fotostend, Azərbaycan, ingilis, rus və digər dillərdə nəşr olunmuş kitab, buklet, dövri mətbuat materiallarından ibarət sərgi açılıb.



Şirvan Dövlət Rəsm Qalereyası, Şirvan Şəhər Gənclər və İdman İdarəsi və Şirvan Gənclər evinin birgə təşkilatçılığı ilə "Soyqırımı dəhşəti rəsmlərdə" adlı sərgi təşkil olunub. Sərgidə əsərləri fərqlənən müəlliflər diplomlarla təltif ediliblər.

***

Şəmkir RMİ Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Bolşevik-daşnak ittifaqının törətdiyi qırğınların günahsız qurbanları" mövzusunda tədbir keçirilib. Tədbirdə "Azərbaycanda soyqırımı silsilələri" mövzusunda məruzə dinlənilib, şagirdlər muzeydə soyqırımı ilə bağlı təşkil edilmiş sərgiyə baxıblar.

***

Ağdaş RMİ Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "31 mart – tarixi yaddaşımızdan silinməyən soyqırımı" adlı tədbir keçirilib. Muzeyin elmi işçisi Ziyalə Əliyevanın mövzuya dair mühazirəsi dinlənilib.

***

Biləsuvar RMİ-nin əhatə etdiyi Salyan Dövlət Rəsm Qalereyasında Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sərgi təşkil olunub.

***



Ağstafa RMİ Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "31 mart – tarixin qan yaddaşı" mövzusunda tədbir gerçəkləşib. Tovuz rayon MKS-nin direktoru Güldərən İbrahimova və rayon Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova mövzu ilə bağlı çıxış ediblər.

***

Masallı RMİ Cəlilabad Rayon Tarix-Diyarşünaslıq Muzeyində "31 mart qətliamı" adlı tədbir keçirilib. Tədbirdə muzeyin direktoru vəzifəsini icra edən Çimnaz Qasımova faciə haqqında söz açıb.

***

Gəncə RMİ Gəncə şəhər Uşaq incəsənət məktəbinin filialında Azərbaycanlıların Soyqırımı Günü münasibətilə rəsm sərgisi təşkil edilib.

Gəncə şəhər MKS-nin 11 saylı kitabxana filialının keçirdiyi "Azərbaycanlılara qarşı törədilən soyqırımı aktı" adlı tədbirdə Gəncə Dövlət Rəsm Qalereyasının kollektivi, Məhsəti Gəncəvi Muzeyinin işçiləri və kitabxananın fəal oxucuları iştirak ediblər.

***



Şəki RMİ Şəkidəki R.Əfəndiyevin Ev-Muzeyində "Bəşər tarixinin dəhşətli faciəsi" mövzusunda məruzə təqdim olunub. Məruzədə erməni-bolşevik terrorçu dəstələrinin 104 il öncə xalqımıza qarşı həyata keçirdiyi soyqırımı haqqında məlumat verilib.

***

Bərdə RMİ-nin tabeliyində fəaliyyət göstərən Yevlax şəhər Heydər Əliyev Mərkəzində "31 mart – Azərbaycanlıların Soyqırımı Günüdür" başlığı altında sərgi təşkil edilib.

# Şəkidə "Böyük Qafqaz incəsənət və rəqs kuboku" yarışması keçirilib

Xəbər verdiyimiz kimi, 26-27 mart tarixlərində Şəki şəhərində "Böyük Qafqaz incəsənət və rəqs kuboku – Şəki-2022" yarışması keçirilib. Azərbaycan Rəqs Assosiasiyası və Azərbaycan Gənclər İttifaqının təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən layihədə regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən bir sıra musiqi məktəbləri də iştirak edərək uğur qazanıblar.

Gəncə RMİ Gəncə şəhər Uşaq incəsənət məktəbinin "Gəncə qönçələri" rəqs ansamblı iki rəqslə 1-ci yerə, bir rəqslə 2-ci yerə layiq görülüb. Yarışmada həmçinin Goranboy şəhər Uşaq incəsənət məktəbinin fortepiano,



rəqs və rəssamlıq şöbəsinin şagirdləri də müvəffəqiyyət qazanıblar. Məktəbin rəqs kollektivi və şagirdlərdən Selman Zərbəli, Ləman Musayeva, Ayşə Tağıyeva I yeri tutublar. Türkan Musayeva isə laureat adını qazanıb.

Sumqayıt RMİ Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin şagirdlərindən Atilla Quliyev, Səid Vəlizadə, Ayla Pənahova, Aysu Məmmədzadə, İnci Vəlizadə, Mədinə Qajıyeva, Fidan Həsənli, Ceyran Talıblı və başqaları öz yaş kateqoriyalarında 1-ci yerə layiq görülüblər. Onları yarışmaya müəllimləri Sevda Məcidova və Esmira Əliyeva hazırlayıb.

Müsabiqədə Abşeron rayon Qobu qəsəbə Uşaq incəsənət məktəbindən Orxan Xəlilzadə, Nisə Baxşiyeva I, Ağacavad Bayramov, Ağalar Qənizadə, Qorqud Eminli II, Nurxanım Bayramova, Mehin Eyvazova, Cavidan Məmmədov, Cəsur Məmmədli, Sunay Qarazadə III dərəcəli, Tamilla Əliyeva və Rəfiqə Bəşirova isə laureat adını qazanıblar.

**Hazırladı: N.Məmmədli**

# Şuşada mətbəə-nəşriyyat fəaliyyəti

## Şimali Azərbaycanda ilk mətbəə burada yaradılıb



2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi mədəniyyət paytaxtımız olan 270 yaşlı şəhərin tarixi-mədəni mirası, ədəbi və maarifçi mühitinə daha geniş şəkildə nəzər salmaq imkanı deməkdir. Bu yazıda XIX əsrin birinci yarısında Şimali Azərbaycanda ilk dəfə Şuşada fəaliyyət göstərmiş mətbəələr haqqında söz açacağıq.

Məlum olduğu kimi, ölkəmizdə mətbəə və nəşriyyat işinin tarixi XIX yüzilliyin əvvəllərinə gedib çıxır. Azərbaycanda mətbəə açmaq, qəzet, jurnal və kitablar nəşr etmək məsələsi bir çox ziyalılarımızı düşündürüb. Lakin buna nail olmaq ilk növbədə o dövrün ictimai-siyasi ab-havası ilə sıx bağlı idi.

Filologiya üzrə elmlər doktoru, şair İslam Sadıq yazır ki, Azərbaycanın maarifpərvər, gələcəyi görən ziyalıları Rusiya ilə mədəni əlaqələr qurmağa, bu əlaqələr vasitəsilə Azərbaycanda məktəblər açmağa, dərsliklər yazmağa, mətbuat və kitab nəşrinə nail olmağa çalışırdılar. Ziyalılarımız Azərbaycanın problemlərinin, o cümlədən torpaqlarımızın Rusiya və İran arasında bölünməsinin, onun mahiyyətinin xalqa düzgün çatdırılmasında maariflənmənin və savadlanmanın əhəmiyyətini yaxşı başa düşürdülər.

Azərbaycan şəhərlərindən ilk dəfə Təbrizdə mətbəə açıldığı qeyd olunur. İ.Sadıq "Azərbaycanda kitab mədəniyyəti" monoqrafiyasında bu barədə məlumat verir. Kitabda görkəmli Azərbaycan alim və mətnşünası Məhəmmədəli Tərbiyətin verdiyi məlumata istinadən bildirilir ki, ilk mətbəə Təbrizə Rusiyadan gətirilib və 1812-ci ildə fəaliyyətə başlayıb. Burada əsasən dünyəvi kitablar nəşr edilib. Başqa bir məlumata görə, Təbrizdə ilk mətbəə 1817-ci ildə yaradılıb. Təbrizdən sonra Urmiya, Ənzəli, Ərdəbil, Rəşt, Həmədan, Qəzvin kimi Azərbaycan şəhərlərində də mətbəələr yaradılıb, kitab nəşri həyata keçirilib.

XIX əsrin ortalarından Bakıda da mətbuat və kitab nəşri geniş vüsət alıb. Həmin dövrdə Bakıda üç, Şamaxıda iki mətbəənin mövcudluğu haqqında məlumatlar var. 1874-cü ildə Gəncə şəhərində Fyodorov və Tarumovun mətbəəsində "Yelizavetpolun rus və müsəlmanlar təqvimi" nəşr edilib. Bu təqvimin bir nüsxəsi Sankt-Peterburqun Saltıkov-Şedrin adına kitabxanasında saxlanılır. 1884-cü ildə Bakıda 5 mətbəə və 1 litoqrafiya (daş çapı), Gəncədə isə 3 mətbəə olduğu statistik qaynaqlarda göstərilib.

Onu da qeyd edək ki, Bakıda ən böyük, dövrünə görə müasir avadanlıqlarla təchiz edilmiş mətbəə-nəşriyyat Oruc, Qəmbər və Abuzər Orucov qardaşları tərəfindən açılıb. 1906-cı ildə yaradılan "Orucov qardaşları" mətbəə-nəşriyyatı 1917-ci ilədək fəaliyyət göstərib.

***

Şimali Azərbaycanda mətbəə-nəşriyyat işi sahəsində musiqi-sənət beşiyimiz Şuşanın adı öndə çəkilir. Şuşada ilk mətbəənin təxminən 1830-cu illərdə fəaliyyətə başladığı bildirilir. 1835-ci ildə Kazan Universitetinin müəllimi, şərqşünas, professor Frans Erdmanın dinə aid fars dilində kitabı Şuşada nəşr edilib.

XIX əsrin II yarısında Ağamirzə Qarabaği də Şuşada mətbəə açıb və burada onlarla kitab çapdan çıxıb.

Ümumiyyətlə, XIX əsr Qarabağ ədəbi mühiti Azərbaycan ədəbiyyat və mədəniyyətində mühüm rol oynayıb. Bu qədim mədəniyyət beşiyində çoxlu şair, musiqiçi, tarixçi və gələcək nəsillərə əsərlərini ərməğan qoyub getmiş neçə-neçə sənət dühası yetişib. Bunlardan biri də ensiklopedik biliyə malik şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi şuşalı Mir Möhsün Nəvvabdır. O da doğma şəhərində mətbəə açanlardan, Şuşanın mədəni-maarif mühitinin canlanmasına öz töhfəsini verən ziyalılarımızdandır.

Tarix üzrə fəlsəfə doktoru Leyla Abasova "Mir Möhsün Nəvvabın Azərbaycan kitab tərtibatında və nəşrində rolu" məqaləsində yazır ki, Nəvvab Şuşada 1884-cü ilin əvvəlində daşbasma üsulu ilə kitab çap edən mətbəə yaradıb. Bu mətbəədə özünün və müasirlərinin bir sıra məcmuələrini, dərsliklərini, eləcə də dini risalələri çap edib: "Bu çap nəşrlərinin mətnlərini yazmaqla bərabər, onlara daxil edilən illüstrasiyaları da Nəvvab özü çəkib. O, 1884-cü ildə Haşımzadə Ağa Mirmehdinin (Xəzani) "Şəriətül-İslam" adlı (48 səhifə həcmində) kitabçasını, həmçinin müəllifi olduğu "Kitabi-kəşfül-həqiqeyi-məsnəvi fi mövzuat və mənzumati-Nəvvab" (1899) kitabı və digərlərini öz mətbəəsində çapdan buraxıb. Əslində, Nəvvabın mətbəəsi çox ibtidai, nöqsanlı idi. Odur ki, o, mətbəənin "kəsir və nöqsanlarından" dönə-dönə şikayət edirdi. Lakin buna baxmayaraq, mətbəədə kitablar, çətinliklə də olsa, çap olunurdu...".

Tarixçi qeyd edir ki, Nəvvab yazdığı əsərlərin litoqrafiya üsulu ilə çapını təmin etmək üçün lazım olan boyaları, qızılı, gümüşü rəngləri, mürəkkəb və başqalarını fərdi reseptləri əsasında (bədir yağı, nişasta və s.) özü hazırlayırdı. Nəvvabın öz sevimli rəngləri və bu rənglərdən təşkil olunmuş xüsusi palitrası var idi. Bozumtul-mavi, göy, sarı, narıncı, qara və çəhrayının qırmızımtıl çalarları onun ən xoşladığı rənglər idi. Rəssamlıq təhsili almasa da, təsvir etdiklərinə fərdi münasibət bəsləməyi bacaran Nəvvabın bədii irsi milli kitab mədəniyyəti xəzinəmizdə özünəməxsus yer tutur.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu Azərbaycan musiqi tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, akademik Zemfira Səfərova "XIX əsrin ensiklopedist alimi Mir Möhsün Nəvvab" məqaləsində yazır ki, o, əvvəlki ruhani məktəblərindən, mədrəsələrdən fərqli olaraq "üsuli-cədid" məktəbləri açmışdı. Bu məktəblərdə, coğrafiya, tarix, ədəbiyyat, dil dərsləri keçirilirdi: "Nəvvabın özü də bu məktəblərin birində dərs deyirdi. Məktəblərdə dinin göstərişinə görə şəkil çəkmək qadağan olunduğundan Novruz bayramına 3-4 gün qalmış şagirdlərə "kətələr" deyilən, şeirlə yazılmış və qıraqları şəkillərlə bəzədilmiş, Nəvvabın əl mətbəəsində çap edilmiş vərəqlər paylanılırdı. Uşaqlar "kətə" paylanan günü həsrətlə gözləyirdilər...".

Göründüyü kimi, mütəxəssislər XIX əsri Azərbaycanda kitab və nəşriyyat işi baxımından məhsuldar bir dövr kimi xarakterizə edirlər. Qarabağımızın tacı Şuşa şəhəri də həmin dönəmdə bu sahədə şöhrət qazanmışdı.

**Nurəddin**

# Qırıq qanadların uçuşu

## Çexovun məşhur “Qağayı”sı ilk dəfə bizim səhnədə

”Siz Çexovun pyesləri ilə tanışsınızmı? Bax, dramaturq belə olar! Teatrı hiss etmək bacarığı onda kamil bir dərəcəyə çatmışdır. Mən özümü onun yanında yeni başlayan həvəskar kimi hiss edirəm...”.

Bunu böyük ingilis dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatçısı Bernard Şou deyib.

Bu fikirlər Çexovun məşhur “Qağayı”sının teatr səhnəmizdə ilk quruluş həllini tapacağını eşidəndən beynimdə dolaşırdı. Qəribə səslənəcək, amma bir az da narahat olurdum. Mənə görə “Qağayı” və qırılmış qanadlarını yana düşməyə qoymayan Çexovun özü belə bu dördpərdəli komediya janrlı pyesin taleyindən narahat idi. Mistika deyil, bunu pyesi oxuyan hər kəs deyə bilər. Oradakı ədəbi-bədii problemləri teatr, səhnə, sənət kontekstində müzakirə-mühakimə edən Çexov və qəhrəmanları, əslində, illər sonra onun səhnə taleyinə də toxunanlara xəbərdarlıq edirlər. Sevgi ilə, istəyərək yanaşmağı arzu edirlər. Pyesdən götürdüyüm “İstedadsız adamlar həmişə böyük iddiada olar və həqiqi istedad sahiblərini pislər. Qəribə təsəllidir” frazası fikrimin izahı, ümumən Çexovun qəhrəmanlarının dilindən sələflər və xələflər məsələsinə, yaradıcılıq böhranları və istedad anlayışlarına baxışını ayırd etmək üçün əla çıxarışdır.

Bəri başdan deyim ki, Gənc Tamaşaçılar Teatrının repertuarına daxil edilən, 27 mart – Dünya Teatr Günündə Bakı Musiqi Akademiyasının Opera studiyasında (teatrın öz səhnəsi təmirdədir) tamaşaçı ilə ilk görüşünə gələn “Qağayı” bu ali prinsip və dəyərləri duyanların kollektiv işi kimi dəyərlidir. Ən əsası da, cəsarətli addımdır. Təbii ki, burada söhbət rejissorun tanış mətnə, birbaşa mətləbə dolayı və mürəkkəb yollarla uğurlu gedişindən gedir. Sözsüz, çatışmazlıqlar, oxşarlıqlar, əxzetmələr, haçalanmalar da yox deyil. Çalışacağam ki, görünən, daha doğrusu, “məni gör” deyən qüsurları da sırf prosesə yeni baxış və cəsarətli aksiya kimi arxa plana keçirim. Ən azı ona görə ki, “Qağayı” pyesində Çexov sənətdə fədakarlıq mövzusuna toxunub və məhz özü əsərlərinin gələcək quruluş, səhnə, sənət taleyinə birmənalı yanaşmayıb...

Pyesin qəhrəmanı Nina Zareçnaya gənc aktrisadır. Əvvəllər səhnə ona bir şöhrət meydanı kimi gəlir, sənətə də ad-san qazanmaq vasitəsi kimi baxır. Lakin həyat göstərir ki, sənət yolunda çox çətinliklər var, həqiqi sənətkar bu çətinliklərə dözməli, axıradək davam gətirməlidir. Nina özündə mənəvi qüvvə tapır və sənət yolunda qarşısına çıxan maneələri bir-bir aradan qaldırıb irəliləyir. Başa düşür ki, əsas iş şöhrətdə deyil, mətanətdədir.





Nina öz istedadını böyük sınaqlardan keçirir və qismən məqsədinə çatır. Təbii ki, burada fəda etdikləri, daha doğrusu, qurbanlar arasından seçdikləri də var və ümumən biz bu tamaşada müxtəlif və qısa yollarla yaradıcı insanların ruh aləmlərinə səyahətə çıxırıq.

Elə “Qağayı”nın quruluşçu rejissoru, Əməkdar artist Nicat Kazımov da ikihissəli lirik-psixoloji dram vasitəsilə müəllifin janr olaraq komediya kimi qələmə aldığı (sonda qəhrəmanın ölməsi səbəbindən bir sıra ədəbiyyatşünaslar pyesin komediya janrının tələblərinə cavab vermədiyini deyirlər) əsərin ən dərin qatlarına qədər varmaqla ilk olaraq özü üçün aydınlaşmalar aparır. Bu dəfə də klassik pyesə yeni yanaşma sərgiləyib. Tamaşanın əsas ideyasını ifadə edən tənhalıq, təzadlar, tərəddüdlər içərisində qalmış insanın problemi hər bir qəhrəmanın vasitəsilə qabardılıb.

Əsərin süjeti bir kişini sevən bir qadının, eyni kişini sevən başqa bir qadının və qadını sevən bir kişinin hekayəsidir. Yəni, əslində, mürəkkəb duyğular fonunda çapalayan insanların məişətindən mənəviyyatına keçidlər toplusudur. Burada təkcə yazıçının qəhrəmanları yox, həm də Çexovun özü var. Yazıçılar Boris Triqorin və Konstantin Treplyov arasındakı ziddiyyət, yaradıcılıq üzərindən mübarizə və qələbəsiz döyüş təkcə klassika ilə müasirliyin yox, həm də Çexovun dövrü, müasirləri, ümumən ədəbiyyatdan yol alanlarla mühakimə-mülahizəsidir.

Onu deyim ki, əsər əsasında Rusiya teatrlarında səhnə həllini tapan bir neçə tamaşanın videoyazısını izləmişəm. Pyes əsasında ekranlaşdırılan Rusiya və ABŞ istehsalı iki filmə də baxmışam. Az-çox realizmdən fantaziyaya keçidlə səhnə içində səhnə, bir növ güzgü prinsipi ilə rejissor baxışlarının fərqli prizmalardan tamaşaçı üzərində işini də görmüşəm. Ümumən əsər güzgü planından istifadə ilə klassik quruluş, mətnin hərəkətindən başqa rejissordan fövqəladə nə isə istəmir.

Hər şey çox sadədir: hadisələr XIX əsrin sonlarında Rusiya kəndlərindən birində baş verir. Qəhrəmanların, demək olar ki, hamısı, xüsusən də qadınlar həyatlarından narazıdırlar. Bəziləri sevgini, bəziləri uğuru, bəziləri də şöhrəti arzulayırlar. Amma heç biri də bu bəzən sadə, bəzən də əlçatmaz görünən arzularına çata bilmirlər. Daha doğrusu, əllərində olanın qədrini bilmir və yalnız itkini dadandan sonra, əslində, xoşbəxtlik haqqında cəfəngiyat danışdıqlarının fərqinə varırlar.

Məhz buna görə də bir qisim tənqidçilər “Qağayı”nı əbədi bədbəxt insanlar haqqında elegiya hesab edirlər. Bir qismi isə onun daxilindəki satiranı, sarkazmı, güclü yumoru ön plana çəkməyə, əslində, müəllifin komediyada israrlı olmasını haqlı çıxarmağa çalışırlar.





Nicat Kazımov da məsələyə bu prinsiplə yanaşaraq seyrçini tamaşa boyunca iki hissin – gülüş və kədərin astanasında saxlayır. İzləyicisini azad buraxaraq həm özü üçün nəticələr çıxarmağa, həm də prosesin içinə daxil olmağa səsləyir. Yəqin aktyorlarını tez-tez tamaşa salonuna “atması” da bu ideyanın oturuşması üçündür. Səhnə ilə salon arasındakı məsafəni sıfırlamaqla hər kəsi qağayının qırıq qanadları altına sığdırmağa və bununla, məncə, özünə bəraət almağa çalışır. Bu, yaxşı düşünülmüş gediş sayıla bilər. Ona görə ki, tamaşaçı daim səhnədən dağılan fikirlərini toplamağa məcburdur. Odur ki, daim ayıq və adekvat olmalıdır. Çünki aktyor ilə onun arasında olan bütün divarlar dağılıb və o, istədi-istəmədi, özü oyunun içinə düşüb.

Tamaşa Semyon Medvedenko (Nurlan Süleymanlı) adlı bir kasıb məktəb müəllimi və onunla birlikdə gəzən əmlak müdirinin qızı Maşa (Aygün Fətullayeva) ilə başlayır. Medvedenko onu sevir. Ancaq Maşa ona heç əhəmiyyət belə verməyən Konstantin Treplyovu (Bəhram Həsənov) sevir. Konstantin isə gözəl qonşusu Ninaya (Səbinə Məmmədova) dəlicəsinə aşiqdir. Onlar gənc yazıçının yeni pyesini məşq edirlər. Konstantin həyəcanlıdır. Çünki anası – məşhur aktrisa İrina Arkadina (Əməkdar artist Kəmalə Hüseynova) və onun sevgilisi olan yazıçı Boris Triqorin (Əməkdar artist Şövqi Hüseynov) tamaşaçılar arasında olacaq. Bu, gənc müəllifi çox narahat edir. Onsuz da onu dayısının, yaşlı və bədbəxt Pyotr Sorinin (Kərəm Hadızadə) yanında qoyub şəhərdə yaşayan anasından incikdir. Çünki həyatda da oynayan, özünü daim obrazda hiss edən anası ona etinasızdır. Xəsis şöhrətpərəst aktrisa, oğluna və qardaşına qarşı simiclik etsə də, pulunu özündən gənc sevgilisi üçün səxavətlə xərcləyir.

Tamaşada bir də Polina Andreyevna (Sevinc Mehrəliyeva) var və o, deyingən əri İlya Şamrayev (Anar Səfiyev) ilə yaşamağa məcbur olsa da, həkim Yevgeni Dorna (Əməkdar artist Rasim Cəfərov) bəslədiyi eşqini gizlətmir, hər vəchlə bunu göstərməyə çalışır.

Tamaşanın ümumi ritminə xidmət edən obrazlar da var (Yakov – Araz Pirimov, işçilər – Ümman Budaqov və Mətləb Abuşov) və onlar ümumi planda öz işlərini yaxşı görürlər.

Dediyim kimi, Konstantinin anası İrina Arkadina məşhur aktrisadır və oğluna görə, anası onun səfalətinin əsas mənbəyidir. Gənc və üsyankar oğlan anasının kölgəsində yaşamağı sevmir. Nə onu, nə də sevgilisini qəbul etmir. Bu uçurumun bir səbəbi də yaradıcılıqdır. Bunu köhnə və yeni formaların mübarizəsi də hesab edə bilərik.

Oğlunun ilk cəhdini – tamaşasını uğursuz sayan, hətta onu ələ salan ana ilə oğul arasında münasibətlər daha da gərginləşir. Hadisələr fonunda şöhrətə aşiq Nina macəraçı Triqorinin ağuşuna atılır və beləcə, ehtiras ilə sevgi, sədaqətlə xəyanət, asılılıqla xaraktersizlik qarşı-qarşıya gəlir.

Nina gənc yazıçının sevgisini məşhur Triqorinlə şəhvətə qurban verir. Özünün də dediyi kimi, heç vaxt ixtiyarı öz əlində olmayan yazıçı isə İrinanın yalvarış və onun içində gizlənən sahiblənmək zəncirindən qopa bilmir, gənc aşiqindən asanlıqla vaz keçir. Nina xəyalını qurduğu məşhurluğa çatmaq üçün böyük şəhərə gedir, uşağını itirir, sevgisini isə heç vaxt tapmır. Əvəzində Konstantini də özü kimi bədbəxtliyə sürükləyir və sonda hər ikisi ölür. Konstantin “ölüm mənim haqqımdır” deyən sevgilisini qolları arasında boğur və özü də intihar edir.

Beləcə, bədbəxt və sevgisiz insanların sevgi axtara-axtara darmadağın olan hisslərinin ortasında qalan ikili yox olmaqla son rollarını oynayırlar.

Tamaşanın quruluş həlli, səhnə tərtibatı bu ağır hadisələr fonunda izləyicini həm də bir oyunun içində saxlamağa hesablanıb. Sadə tərtibat: funksional loto daşları (bəzən çamadan, bəzən oturacaq, bəzən nağara, bəzən də öz funksiyasında olurlar), səhnədə qurulmuş səhnə və onun arxasından asılmış yelləncək sadə və məsələyə birbaşa bağlı detallarla, iri dekorsuz keçinməyə yaxşı işarədir. Zatən rus məişətini, dövrün estetikasını və ümumi ovqatın funksionallığını təmin etmək üçün quruluşçu rəssam izafi enerji sərf etməli idi ki, bu da müasir tamaşaçı üçün heç bir əhəmiyyət kəsb etmir. Bu mənada tərtibatçı rəssam Telman Şıxıyev yaxşı çıxış yolu tapıb. Onu da deyim ki, tamaşanın musiqi tərtibatı (Şamxal Novruzlu) özlüyündə aktın təsirini artıran başlıca amildir.

Bənzərsiz Pyotr Çaykovskinin “Qu gölü” baletinin musiqilərindən, eləcə də bəstəkarın bir romansı, kilsə musiqisi və sentimental valsından da yerində və ustalıqla istifadə olunub.

Bir neçə cümlə ilə yüngülcə narahatlıq yaradan məqamlara da nəzər salaq.

Konservativ, ümumən səhnədə sevgi və ehtirasın nümayişkaranə təsviri formalarından çəkinən tamaşaçı deyiləm. Üstəlik, rejissorun “bizim tamaşaçıya uyğunlaşdırmağa çalışmışıq” dediyi tamaşada bu elementlərin bəzən ifrat, açıq təsvirinə niyə bu qədər meyil etdiyini anlaya bilmədim. Ən əsası, tamaşa boyu bütün təmaslarda Çexovun ümidsiz sevgilər vurğusundan çox şəhvəti (bunun sırf qadın qəhrəmanlar üzərindən göstərilməsi) verməsinə izah tapmaq çətindir. Rejissor təsviri gücləndirmək və əsərin komediya janrını xatırlatmaq üçün bütün işıqları yalnız Kəmalə Hüseynovanın “üzərinə” çəkir. Hərçənd istedadlı və olduqca təsirli oyunu ilə yadda qalan Kərəm Hadızadə rejissorun detal olaraq istədiyi məqamlarda tamaşaçısına satirasının bəxş etdiyi gülüşü daha yaxşı verə bildi.

Şövqi Hüseynovun qəhrəmanının yalnız şəhvətin əsiri kimi təqdimatı, Aygün Fətullayevanın qadın olaraq malik olduğu cazibədarlığını yöndəmsiz Nina ilə pərdələməsi, Səbinə Məmmədovanın xüsusən monoloqlarda tamaşaçı ilə güclü rabitəsini arxa plana salması da anlamsız qalır.

Rasim Cəfərov və Bəhram Həsənov, mənə görə, rejissorun tamaşaçı ilə əsas oyunçularıdır. Onlar bunun öhdəsindən gəldilərmi deyə soruşsanız, R.Cəfərovdan fərqli olaraq, B.Həsənov müəyyən məqamlarda sanki tamaşanın ritmindən geri qalırdı. Plastikası (xoreoqraf Əməkdar artist Nailə Məmmədzadəyə və fəndlərin quruluşçusu İsa Əsədova təşəkkür düşür), xüsusən intihar səhnəsindəki sürəti ilə ümumi ovqata təravət gətirdiyindən, öncəki ləngitmələri üzərində dayanmaq istəməzdim.

Ləngitmə demişkən, əslində, tamaşanın müəyyən hissələrinin salondan oynanılması (yəqin öz səhnələrində oynayarkən bu detal bir də nəzərdən keçirilər), yəni kulislərin salon və çıxışlar ilə əvəzlənməsi ümumilikdə temporitmi saxlamağa hesablanmış olsa da, zənnimcə, əksinə, aktyorların izafi enerji itkisi və replikaları ilə hərəkətləri arasındakı rabitəni zəiflədirdi.

Ümumilikdə tamaşa, yuxarıda da dediyim kimi, ansambl işi, rejissor energetikasının ötürülməsi və quruluşçu heyətin imkanlarını yaxşı analiz gücü sarıdan baxımlı nümunədir. Bu mənada rejissorun yeni üslub axtarışlarını da gözardı etmək olmaz...

**Həmidə Nizamiqızı**

# İndoneziya səfiri Qusar teatrı ilə tanış olub

Martın 30-da İndoneziya Respublikasının Azərbaycandakı səfiri Hildi Hamidi və səfirlik əməkdaşları Qusar rayonuna səfərləri çərçivəsində Qusar Dövlət Ləzgi Dram Teatrına da baş çəkiblər.



Yaradıcı heyətlə tanış olan diplomata sənət ocağının fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, multikultural dəyərlərin yüksək səviyyədə təmin olunduğu ölkəmizdə azsaylı xalqların mədəni inkişafına, dilinin, folklorunun qorunmasına xüsusi diqqət yetirilir. Sənət ocağında ləzgi dilində hazırlanan tamaşalar da bunun nümunəsidir.

Teatrın heyəti ilə tanışlıqdan məmnunluq ifadə edən səfir Azərbaycanın bölgələrində də peşəkar teatr fəaliyyətinin olmasını alqışlayıb. Qonaqlara ayrı-ayrı tamaşalardan ibarət kompozisiya və folklor nümunələri nümayiş olunub.

# Salyan Kukla Teatrında “Hərənin öz ulduzu”

Salyan Dövlət Kukla Teatrının kollektivi bu dəfə böyük yaş qrupundan tamaşaçıların qarşısına çıxacaq. 1 aprel – ”Gülüş günü” münasibətilə ”Hərənin öz ulduzu” tamaşası nümayiş olunacaq.




İsi Məlikzadənin eyniadlı əsəri əsasında hazırlanan komediya janrlı tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova, musiqi tərtibatçısı Ceyhun Rüstəmbəylidir. Rolları Nahid Rüstəmbəyli, Aysel Hüseynli, Mədinə Ramazanova, Təzahür Mehdiyev və başqaları ifa edirlər.

Birhissəli musiqili tamaşada iki gəncin məhəbbəti və buna görə çəkdikləri zəhmət komik çalarlarla tamaşaçıya çatdırılır.

# BXA-nın tələbələri beynəlxalq mükafata layiq görülüblər

Rusiyanın Moskva və Çeboksarı şəhərlərində onlayn formatda keçirilən ”Talant-2022” VIII Beynəlxalq müsabiqəsinə Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas təhsil pilləsinin tələbələri də qatılıblar.

BXA-dan bildirilib ki, akademiyanın klassik rəqs nominasiyası üzrə tələbəsi Nərgiz Abdullayeva “Don Kixot” baletindən Kitrinin variasiyası ilə I dərəcəli laureat diplomunu qazanıb. Müasir rəqs nominasiyasında isə “Əkslərin birliyi” rəqs nömrəsini təqdim edən Zəhra İsrafilova, Marri Şahmədova, Aydan Qurbanova, Emiliya Nağızadə, Sofiya Həmidova, Dos Santos Fatima Nikol, Sabina Adıyeva, Darya Kostyunina, Diana Xozina, Timur Nurmamedov müsabiqənin Qran-pri mükafatına layiq görülüblər.

Akademiyanın müəllimləri R.İsgəndərova, Y.Çernausova və bədii rəhbəri, rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmmədzadəyə müsabiqə təşkilatçılarının təşəkkür məktubu ünvanlanıb.

Müsabiqə Rusiya Mədəniyyət Nazirliyi, Qnesina adına Rusiya Musiqi Akademiyası və Rusiya Bəstəkarlar İttifaqının dəstəyi ilə keçirilib.

# Bakı Uşaq və Gənclər Teatrının yeni tamaşası

Bakı Uşaq və Gənclər Teatrında ”Qucaqla məni” adlı yeni tamaşanın nümayişi keçirilib. Tarix boyu xalqımıza qarşı törədilmiş soyqırımlara həsr olunmuş tamaşanın müəllifi Arzu Soltan, rejissoru Əməkdar artist İntiqam Soltandır. Rolları Əfruz Əliyeva, Ədalət Ağaverdiyev oynayırlar.



Tamaşa müzikl formasında canlı musiqinin müşayiəti ilə (musiqiçi Yusif Rüstəmov) hazırlanıb.

Təqdimatda Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Milli Məclisin deputatı Sevinc Fətəliyeva, rayonun digər rəsmiləri, idarə-müəssisələrin rəhbərləri, şəhid ailələri və qazilər iştirak ediblər.

Tamaşanın sonunda rayonun icra başçısı Ə.Əzizov çıxış edərək yaradıcı kollektivə yeni uğurlar arzulayıb.

“Şuşalı Milli Qəhrəmanlar”

## Vətənə sadiq cəsur döyüşçü

### O həm də müəllim idi...



Əslən Şuşadan olan, bu şəhərdə doğulub-böyüyən, yaxud da fəaliyyətinin müəyyən mərhələsi Şuşa ilə bağlı olan, burada döyüşüb şəhidlik zirvəsinə qovuşan Milli Qəhrəmanlarımızı tanıtmaqda davam edirik. “Şuşa İli” ilə bağlı təqdim etdiyimiz “Şuşalı Milli Qəhrəmanlar” silsiləsində bu dəfə igid Vətən oğlu Sadiq Hüseynovun həyat və döyüş yolundan söz açacağıq.

Sadiq Dayandur oğlu Hüseynov 1961-ci il avqustun 29-da Ağcabədi rayonunun Xocavənd kəndində anadan olub. 1968-1978-ci illərdə doğulduğu kənddəki 1 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonra Xankəndi Pedaqoji İnstitutunun fizika-riyaziyyat ixtisasına qəbul olunub. Ali məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra məzunu olduğu kənd məktəbində fizika-riyaziyyat müəllimi kimi əmək fəaliyyətinə başlayıb.

Sadiq Hüseynov 1988-ci ildə, bədnam ermənilərin ölkəmizə qarşı ərazi iddialarına başladığı vaxt işləmək üçün Şuşa Rayon Polis Şöbəsinə müraciət edir. Həmin ildən Şuşa rayonunda sahə müvəkkili vəzifəsində çalışır. 1992-ci ildə ermənilər Şuşaya hücum edəndə Sadiq digər polis əməkdaşları ilə birlikdə döyüşlərə atılır. Zarıslı, Malıbəyli, Turşsu və başqa kəndlərdə onun başçılıq etdiyi hərbi dəstənin səyi nəticəsində onlarla düşmən məhv edilir, xeyli sayda silah-sursat ələ keçirilir. 1992-ci il martın 29-da gedən döyüşlərin birində ağır yaralanan Sadiq Hüseynov yenə silahını yerə qoymur. Aprelin 13-də erməni işğalçıları Şuşanı raket atəşinə tuturlar. Həyatını hər an Vətəninə, torpağına qurban verməyə hazır olan Sadiq qəhrəmancasına şəhadətə yüksəlir.



Şuşa Rayon Polis Şöbəsinin sahə rəisi, polis mayoru, Milli Qəhrəmanın xidmət yoldaşı olmuş Nazim İsgəndərov onu belə xatırlayır: “Sadiq Şuşada gedən döyüşlərin hamısında iştirak edib. Salatın kəndi, Qaladərəsinin azad olunmasında xüsusi şücaət göstərib. Daşaltına hücum olan vaxt Şuşanın keçmiş polis rəisi mərhum Eldəniz Quliyevlə birgə bizi mühasirədən çıxarmaqda yaxından köməklik edib. Sadiq şəhid olan günü Xankəndinin Kərkicahan qəsəbəsində güclü döyüş gedirdi. Həmin vaxt mənə bildirdi ki, bizim sursatımız tükənir, Polis Şöbəsindən düşmənin texnikasını vurmaq üçün lazımi silah-sursatı gətirməliyik. Onu da deyim ki, Kərkicahanda biz döyüşdə olan zaman ermənilər Şuşanı “Alazan” raketləri ilə vururdular. Kərkicahanla Şuşanın arası maşın yolu ilə 8-9 km-dir. Sadiq Kərkicahan qəsəbəsinə döyüş sursatını çatdırmaq üçün Polis Şöbəsinə girdi. Mən də döyüş yoldaşlarımıza ərzaq almaq üçün şöbənin yaxınlığında olan mağazaya daxil oldum. Bu zaman ermənilər şöbəni ağır artilleriya atəşinə tutdular. Mən həmin an özümü şöbəyə yetirdim. Sadiq ağır yaralanmışdı. Mənə bildirdi ki, artıq mən ölürəm, sən qaç canını qurtar. Həmin dəqiqələrdə düşmən şöbənin ətrafını vururdu. Mən birtəhər Sadiqi götürüb, öz maşınına qoyaraq xəstəxanaya apardım... Sadiq gənc olsa da, güclü döyüşçü və qorxmaz bir insan idi...”.

Milli Qəhrəmanın döyüşçü yoldaşı Sakit Bəşirov vurğulayır ki, Şuşanın düşməndən müdafiəsində Sadiqlə birgə iştirak edib: “Onunla bağlı çox xatirələrim var. O, həqiqətən də, qorxmaz oğul idi. Sadiq bizim qəlbimizdə həmişə yaşayacaq. Artıq Sadiqin ruhu şaddır. Çünki 44 günlük Vətən müharibəsində qüdrətli Ordumuz Şuşamızı, Qarabağımızı düşməndən azad etdi. Sadiqin və bütün şəhidlərimizin qanı yerdə qalmadı”.

Sadiq Hüseynov 1990-cı il dekabrın 28-də Nəzakət Bəşirova ilə ailə həyatı qurmuşdu. Ölümündən 4 ay sonra qız övladı dünyaya gəlib. Ona atasının xatirəsi yaşasın deyə Sadiqə adı veriblər. İndi qəhrəman atasının adını fəxrlə daşıyır.

Sadiq Hüseynov 1992-ci il aprelin 13-də doğulduğu Xocavənd kəndində dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 8 oktyabr tarixli fərmanı ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

Qeyd edək ki, Ağcabədi rayonundakı küçələrdən biri, bir vaxtlar oxuduğu və işlədiyi Xocavənd kənd 1 saylı tam orta məktəb hazırda Sadiq Hüseynovun adını daşıyır.

Allah rəhmət eləsin.

**Nurəddin**

## “Tanrı yoxuşu”

### Kəlbəcərin işğalı zamanı mühasirədə qalanların həyat mücadiləsindən bəhs edən kitab




Tanrı yoxuşu Murovdağ silsiləsindən Daşkəsənə adlayan aşırımlardan biridir. Kəlbəcər erməni quldur birləşmələrinin işğalı altına düşəndə həmin aşırımı adlamaq həyati əhəmiyyət kəsb edirdi. Amma amansız düşmən və sərt təbiətlə ölüm-dirim mübarizəsi nəticəsində qarlı-çovğunlu aşırımı adlamaq heç də mühasirəyə düşənlərin hamısına nəsib olmadı. Qarlı aşırımda yüzlərlə insan həlak oldu, itkin düşdü, donvurmadan öldü...

Əslən Kəlbəcərdən olan araşdırmaçı-jurnalist Elxan Salahovun bu günlərdə işıq üzü görən “Tanrı yoxuşu” kitabında 1993-cü ildə düşmən mühasirəsindən xilas olmağa çalışanların həyat mücadiləsindən, erməni hərbi birləşmələrinin törətdiyi müharibə cinayətlərindən real faktlar əsasında bəhs edilir.

Birinci Qarabağ müharibəsinin hələ də qaranlıq qalan səhifələri, açılmayan, araşdırılmayan, ictimaiyyətin xəbərsiz qaldığı hadisələri var. Bunlardan biri də 1993-cü ilin aprelində Ermənistanın silahlı qüvvələri Kəlbəcəri işğal edərkən mühasirədə qalan insanların başına gələn müsibətdir. Kitabda mühasirədə qalan əsgərlərin və dinc sakinlərin başına gələnlər, ermənilərin törətdiyi qətliamlar və vandalizm hərəkətləri şahidlərin xatirələri əsasında qələmə alınıb. Kitabın redaktoru tanınmış publisist Süleyman Qaradağlıdır.

# Üzeyir Hacıbəyli onun üçün mahnı yazıb

### İfa etdiyi muğam və nəğmələrdə yaşayan Tükəzban İsmayılova

“Ömrümü mənalı edən insanların mənə sevgisidir. Tamaşaçı sevgisi olmasa, sənətkar heç vaxt şöhrət qazana bilməz...”.

Görkəmli xanəndə, Xalq artisti Tükəzban İsmayılova bu qənaətə tamaşaçı-dinləyici sevgisini qazanandan sonra gəlmişdi. Bu sevgi, şübhəsiz ki, gerçək sənət sahiblərinə, peşəsinin məsuliyyətini dərk edənlərə nəsib olur. Tükəzban İsmayılova Azərbaycanın musiqi tarixində yüksək ifaçılıq qabiliyyəti, səhnə mədəniyyəti, xüsusilə də qadın müğənnilər arasında öz dəst-xətti ilə seçilənlərdən idi. O, 85 illik ömrünün 65 ilini Azərbaycan xalqının zəngin musiqi irsinə, muğam sənətinə, onun inkişafı və təbliğinə həsr edib.

Tükəzban Məhərrəm qızı İsmayılova 21 dekabr 1923-cü ildə Bakı şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərir. Bu həvəs onu Asəf Zeynallı adına Musiqi Texnikumuna gətirir. Burada klassik xanəndəlik məktəbinin korifeylərindən olan Hüseynqulu Sarabskinin muğam sinfində təhsil alır. Səs və ifası ilə tələbələr sırasında fərqlənir. Təhsilini başa vurub 1944-cü ildə Azərbaycan Radio Komitəsində müğənni kimi işə qəbul edilir. Bir müddət sonra Azərbaycan Dövlət Filarmoniyasının solisti olur. 1956-cı ildə filarmoniyanın konsert şöbəsi “Azərbaycan Dövlət Estradası”na çevrilir və Tükəzban İsmayılova 1962-ci ilədək burada fəaliyyət göstərir.

Araşdırmalarda qeyd edilir ki, dahi Üzeyir Hacıbəyli müğənninin şaqraq səsini, gözəl vokal imkanlarına malik ifasını dinlədikdən sonra onun üçün məxsusi olaraq “Qaragöz”, “Şəfqət bacısı” və s. mahnıları yazıb.



İllər bir-birini əvəz etdikcə o da sənət yollarında irəliləyir, tanınır və sevilir. Yenidən Azərbaycan Dövlət Filarmoniyasının, “Azkonsert” Qastrol-Konsert Birliyinin solisti olur.

O, gənc xanəndələr nəslinin yetişməsində də səy göstərib. İncəsənət Gimnaziyasında dərs dediyi illərdə gənclərə sənətin sirlərini öyrədib, onları böyük sənətə, səhnəyə hazırlayıb.

Xanəndənin özünəməxsus üslubda oxuduğu “Qatar”, “Xaric segah”, “Şahnaz”, “Kürdün gözəli”, “Yeri, dam üstə yeri”, “Qarabağ şikəstəsi” və s. muğamlarla, mahnılarla musiqi ifaçılığı xəzinəmizi zənginləşdirib. Qəlbəyatan avazı musiqisevərlərin duyğularına sığal çəkib...

Bəstəkar mahnıları da Tükəzban İsmayılovanın repertuarında geniş yer tutub. O, bəstəkarlardan Ələkbər Tağıyev və Tamella Məmmədzadənin yaradıcılığına daha çox müraciət edib. “Sənin vüqarın mənəm”, “Sənsən”, “Ceyran”, “Qonşu qız”, “Sən mənimlə get”, “Çiçək” müğənninin ifasında 60-70-ci illərdə ən çox sevilən mahnılar olub.

Bir çox sənətkarlarımız kimi gənc Tükəzban İsmayılova da II Dünya müharibəsi illərində təşviqat briqadasının tərkibində cəbhələrdə hərbçilər qarşısında konsertdə iştirak edib, öz şaqraq ifası ilə döyüşçülərdə ruh yüksəkliyi yaradıb. Onun bu sahədə fəaliyyəti diqqətdən kənarda qalmır. Bir müddət sonra “Əməkdə fərqlənməyə görə” medalı ilə təltif olunur.

Tükəzban İsmayılova Azərbaycan musiqisinin ölkəmizdən kənarda təbliği sahəsində də uğurlu fəaliyyət göstərib. Müxtəlif illərdə Almaniya, Polşa, İraq, İran, Türkiyə, Misir, Əlcəzair və s. ölkələrdə qastrol səfərində olub, musiqi mədəniyyətimizi layiqincə təmsil edib.

Milli musiqi sənətimizin inkişafındakı xidmətləri yüksək qiymətləndirilən sənətkar 1967-ci ildə “Əməkdar artist”, 1993-cü ildə “Xalq artisti” fəxri adlarına, 1998-ci ildə isə “Şöhrət” ordeninə layiq görülüb.

Tükəzban İsmayılovanın böyük şövqlə ifa etdiyi muğam və mahnıların çoxu səs xəzinəmizin “qızıl fond”unda saxlanılır. Onun səsləndirdiyi “Kəsmə şikəstə”, “Yetim segah” və başqa nümunələr bu gün də dinləyicilərin könlünə rahatlıq gətirir.

Muğamlarımızın mahir ifaçısı, gözəl pedaqoq və qayğıkeş insan Tükəzban İsmayılova 24 mart 2008-ci ildə Bakıda vəfat edib. II Fəxri xiyabanda dəfn olunub.

**S.Fərəcov**

## Özbəkistan saytlarında Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar yazılar




Özbəkistanın “fikr.uz”, “tnews.uz” internet portallarında 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar materiallar dərc edilib.

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə dərc edilən məqalələrdə 1918-ci ilin mart hadisələri, erməni daşnaklarının Azərbaycanın şəhər və kəndlərinə hücumu, günahsız insanların qəddarlıqla qətlə yetirilməsindən bəhs olunur.

Bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu hadisələrin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmiş, komissiya mart soyqırımını, ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdı. 1919-cu ilin 31 martı matəm günü kimi qeyd edilmişdi. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımına da ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Məqalələrdə qeyd olunur ki, azərbaycanlılara qarşı soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və ölkənin başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, tarixi tikililər, mədəniyyət abidələri dağıdılıb məhv edilmişdi.

Diqqətə çatdırılır ki, Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə bu hadisələrə tarixi-siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Məqalələrdə 1992-ci ilin Xocalı faciəsi haqqında da məlumat verilib.

## Hindistan gəncləri tarixi həqiqətlər haqqında məlumatlandırılıb

Ölkəmizin Dehlidəki səfirliyində 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib. Səfirlikdən bildiriblər ki, tədbirə Hindistanın gənclər təşkilatları və universitetlərin nümayəndələri qatılıb.

Səfir Əşrəf Şıxəliyev 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən Bakı, Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qars bölgələrində on minlərlə azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsi barədə məlumat verib.

Diplomat bu qanlı hadisələrin qurbanlarının xatirəsinin yad edilməsi məqsədilə 1998-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə 31 mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü elan edildiyini deyib. O, Ermənistanın işğalçı və etnik təmizləmə siyasətinin ağır nəticələri barədə danışaraq qeyd edib ki, erməni silahlılarının azərbaycanlı əhaliyə qarşı cinayətləri 1992-ci ildə Xocalı soyqırımının törədilməsi, 2020-ci ildə Gəncə, Tərtər və Bərdə şəhərlərinə ballistik raketlər və kasetli bombalarla hücumlar ilə yenidən təkrarlanıb.




Gələcəkdə oxşar faciələrin yaşanmaması üçün bu soyqırımı qurbanlarının yad edilməsinin və unudulmamasının vacibliyi vurğulanıb.

Səfir Əşrəf Şıxəliyev Azərbaycanın 44 günlük müharibədə Qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsindən də danışıb. O, Azərbaycan–Hindistan münasibətlərinin vəziyyəti və perspektivləri, o cümlədən iqtisadi və mədəni sahələrdə əməkdaşlıq imkanlarına dair məlumat verib, tədbir iştirakçılarının suallarını cavablandırıb.

## Azərbaycanda ilk aptekin tarixindən

XIX əsrin əvvəllərində Salyan qəzasının indiki Neftçala rayonunun Tatarməhlə kəndi ərazisində balıqçılıq müəssisəsi fəaliyyət göstərirdi. 1841-ci ildə vətəgələr, xəstəxana, inzibati idarə və yaşayış sahələri Bankə qəsəbəsinə köçürülür.




Həmin dövrdə Bankənin adı Avropada da məşhur idi. Burada zəngin balıq vətəgələri və iri balıqçılıq müəssisəsi vardı. Orada istehsal olunan qara kürünün dadı və şöhrəti hətta Amerikaya qədər yayılmışdı. Bankədə yerli əhali ilə yanaşı, çoxlu sayda ruslar, tatarlar, gürcülər və digər xalqlardan olan yüzlərlə muzdlu çalışırdı.

O vaxtlar tüğyan edən vəba, taun kimi xəstəliklərin balıqçılar arasında yayılmasının qarşısını almaq üçün zəruri tədbirlər görülürdü. Azərbaycanda ilk aptek də 1850-ci ildə indiki Neftçala rayonunun Bankə qəsəbəsində, balıqçı gəmisində yaradıldı. Aptek XX əsrin əvvəllərində Bankə balıq vətəgəsinin binasına – indi də yerləşdiyi binaya köçürülüb. Qırmızı kərpicdən tikilmiş binanın iki əsrə yaxın yaşı var.

Gəmilərlə Rusiyadan gətirilən zəngin dərman ehtiyatına malik aptek nəinki yerli əhalinin, həmçinin regionda yerləşən qəsəbə və şəhərlərin də tibbi ehtiyacını ödəyirdi. Hətta Bakı, Gəncə, Lənkəran kimi şəhərlərdən həkimlər və xəstələr çətin əldə olunan dərmanlar üçün ölkənin bu ilk və yeganə aptekinə gəlirdilər. Aptek binasının ikinci mərtəbəsindən 1960-cı ilin əvvəllərinə qədər yaşayış məqsədilə də istifadə olunub. Artıq binada insanlar yaşamasa da, aptek bu gün də əhaliyə xidmət edir.

Azərbaycanda yaradılmış ilk aptekə aid materiallar AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilib.

Muzeydən bildirilib ki, Sənədli mənbələrin elmi fondu şöbəsinin əməkdaşı Nərmin Nəzərova Neftçalada aptekin müdiri Vüqar İsmayılovla görüşüb. Onun muzey əməkdaşına təqdim etdiyi aptekə aid materiallar muzeyin aidiyyəti fondlarına təhvil verilib.

## “Qarabağ ədəbi-mədəni mühiti yeni baxış müstəvisində”

### Konfransa məqalə qəbul olunur

Mayın 5-6-da AMEA-nın Gəncə Bölməsinin təşkilatçılığı ilə Şuşa şəhərinin 270 illiyinə həsr olunan “Qarabağ ədəbi-mədəni mühiti yeni baxış müstəvisində” mövzusunda respublika konfransı keçiriləcək.

Bu barədə AMEA-dan məlumat verilib. Bildirilib ki, ölkə başçısının 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında” müvafiq sərəncamına əsasən keçiriləcək tədbirin məqsədi Şuşa şəhərinin tarixini, görkəmli şəxsiyyətlərini, milli-mənəvi və sosial-mədəni irsini, ədəbiyyatını, incəsənətini, memarlığını müxtəlif aspektlərdən araşdırmaqdan ibarətdir.

Konfrans Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixi, şəhərin ölkəmizin ədəbi irsində yeri, incəsənət və memarlıq nümunələri, dini, mədəni abidələri, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər və digər mövzuları əhatə edəcək.

Tədbirə alimlər, elmi işçilər, doktorant və magistrantlar məruzə və tezislərini təqdim edə bilərlər. İştirak etmək istəyənlər məruzə və tezislərini aprelin 20-dək rus, ingilis dillərində xülasə və açar sözlərlə tərtib edilən 2-3 səhifə həcmində olmaqla alimuxtar@gmail.com elektron poçt ünvanına göndərməlidirlər.

# Azərbaycan folklor kollektivlərinin dünəni və bu günü

## “Tello” və “Dügah” ansamblları

Üzərində işlədiyimiz “Azərbaycan folklor kollektivlərinin dünəni və bu günü” mövzusu, həqiqətən də, keçmişlə indi arasında bir mənəvi körpü olaraq əhəmiyyət kəsb edir. Çünki vaxtilə fəaliyyət göstərmiş folklor kollektivləri milli musiqi irsinin yaşamasında mühüm rol oynamışlar. Həmin kollektivlərin fəaliyyəti sayəsində qədim el havalarımız, milli musiqi alətlərimiz, adət-ənənələrimiz və bu kimi milli mənəvi dəyərlərimiz təbliğ olunub, qorunub, unudulmayıb.

Etiraf etməliyik ki, müasir dövrdə belə kollektivlərin sayı azalıb. Amma hər bir folklor kollektivi musiqi mədəniyyətimizin bir səhifəsi olduğundan dünənin və bu günün folklor ansambllarının tarixini araşdırmaq və onların əhəmiyyətini təhlil etmək bu tədqiqat işinin əsas qayəsidir.

Bundan əvvəlki araşdırmalarımız Qəbələ və İsmayıllı rayonlarının folklor kollektivlərindən bəhs edib. Bu yazıda isə oxucularımızı Sumqayıt şəhərində yaradılan “Tello” və “Dügah” folklor kollektivləri ilə tanış edəcəyik. Əslində, bəlkə də ötən illərin sənətsevərlərinə bu ansamblların adları tanışdır, amma bu gün onlar fəaliyyət göstərmir. Görəsən niyə?

Əvvəlcə adıçəkilən kollektivlərin tarixinə nəzər salaq, sonra bu sualı da cavablandırarıq...

### “Tello” folklor ansamblı

Bu kollektiv 1983-cü ildə Soltan Hacıbəyov adına Sumqayıt şəhər Orta İxtisas Musiqi Məktəbinin (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci) direktoru, tarzən Əvəz Rəhmətov və məktəbin xanəndə sinfinin müəllimi Səlim Ağayevin təşəbbüsü ilə yaranmışdı. Xanəndə Səlim Ağayev kollektivin bədii rəhbəri, tarzən Bakıxan Müzəffərov isə konsertmeyster idi. Kollektivin üzvləri məktəbin müəllim və tələbələrindən təşkil edilmişdi.


“Dügah” folklor ansamblı (1985)


“Tello” folklor ansamblı (1985)

Məktəbin digər müəllimlərindən Ağamayıl Səfərov (balaban, zurna, tütək, ney), Məlik Hacıyev (kamança), Böyükağa Dadaşov (tar), Həşim Hüseynov (ud), Rəhilə Ələkbərova (qanun) ansamblı təşkil edənlərlə birlikdə fəaliyyət göstəriblər. Onlar öz istedadlı tələbələrini də bu kollektivə cəlb ediblər. O dövrdə tələbə olan Bədəl Qafarov (saz), Nazim Vəliyev (saz), Əbülfəz Binnətov (bas-tar) və digərləri müəllimləri ilə çiyin-çiyinə çıxışlar etməklə milli musiqi nümunələrinə yeni həyat veriblər. Həta ansamblın tələbə olan bir çox üzvləri məktəbi bitirdikdən sonra da bu tərkibdə qalaraq fəaliyyət göstəriblər.

Kollektivə “Tello” adının verilməsi qədim “Tello” xalq mahnısı ilə bağlıdır. Ansambl bütün çıxışlarını məhz “Tello” xalq mahnısı ilə bitirərmiş. Kollektivin bədii rəhbəri Səlim Ağayev ansambla bir neçə solist də dəvət edir. Onlardan Təhmiraz Şirinov (indi respublikanın Əməkdar artisti), Mənzurə Musayeva, Həqiqət Həsənova, Nəzakət Piriyeva, Əfras Məmmədov, Ədalət Quliyev, Zöhrə Məmmədova, Kamal Əmrahov kimi xanəndələrin adını çəkə bilərik. Onların ifasında səslənən bir çox mahnılar unudulmaqda olan el nəğmələridir. “Biləy”, “A teşti-teşti”, “Aranda qaldım”, “Leylacan” kimi mahnılar bu qəbildəndir. Bu nümunələrin repertuara daxil olması həm qədim mahnı yaradıcılığını təbliğ etmək, həm də yeni ifaçı nəslinin repertuarını zənginləşdirmək qədər əhəmiyyətlidir. Nəzərə alsaq ki, həmin mahnılar radio və televiziyadan səslənərək həm yaddaşlara köçüb, həm də yeni ifaçıların repertuarına daxil olub, bu, fikirlərimizin əyani təsdiqidir.

“Tello” folklor ansamblının repertuarına unudulmaqda olan mili rəqslərimiz də daxil olub. Bunlardan “Dərbəndi”, “Şirvani”, “Ənzəli” və başqalarını qeyd edə bilərik. Adıçəkilən mahnı və rəqslər ansamblın lent yazılarında qorunub saxlanılır.

“Tello” ansamblında tar, kamança, saz, tütək, balaban, ney, ud, qanun, zərb, nağara, qoşanağara, Azərbaycan və türk zurnası, tulum, bas-tar kimi musiqi alətləri istifadə olunurdu.

Təbii ki, ansamblın repertuarı qədim folklor nümunələrindən ibarət olduğu üçün ifaçıların geyimində də milli geyim ornamentləri xüsusi yer tuturdu. Kişilər milli üslubda papaq, çərkəzi çuxa, atlas köynək və qurşaq, qadınlar isə milli paltar dəsti və xüsusən də bəzəkli, milli naxışlardan ibarət kəlağayı ilə səhnəyə çıxardı.

Bir sözlə, “Tello”nun simasında da tamaşaçı, dinləyici əsl milli ruhu duya bilirdi. Odur ki, onun çıxışları daim uğurla keçib, kollektiv müxtəlif fəxri fərmanlarla da təltif olunub.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində, neçə-neçə təhsil, mədəniyyət ocaqlarında, kütləvi tədbirlərdə, hərbi hissələrdə konsertlər verən “Tello” folklor ansamblı respublikamızın hüdudlarından kənarda da uğurlu çıxışları ilə tanınıb. 1984-cü ildə ansamblın çıxışı ümumittifaq “Melodiya” səsyazma firması tərəfindən qrammofon valına da yazılmışdı. Kollektivin ifaları olan lent yazıları “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin videotekasında və Radio fondunda da qorunub saxlanılır.

Təbii ki, bizim əldə etdiyimiz məlumatlar “Tello” folklor kollektivinin fəaliyyətinin qısa bir məcmusudur. Artıq uzun illərdir bu kollektiv fəaliyyət göstərmir. Bizə belə müfəssəl bilgi verdiyinə görə kollektivdə musiqi rəhbəri olmuş, hazırda Sumqayıt Musiqi Kollecinin şöbə müdiri, Əməkdar müəllim Abdul Həşımova böyük minnətdarlığımızı bildiririk. Abdul müəllimin ötən illəri xatırlaması ilə daha bir folklor kollektivinin tarixinə nəzər salaq.

### “Dügah” folklor ansamblı

Bu kollektiv də 1985-ci ildə Soltan Hacıbəyov adına Sumqayıt şəhər Orta İxtisas Musiqi Məktəbinin direktoru, tarzən Əvəz Rəhmətov və məktəbin balaban sinfinin müəllimi, nəfəs alətlərinin mahir ifaçısı Ələkbər Əsgərovun təşəbbüsü ilə yaranmışdı. Kollektivin bədii rəhbəri Ələkbər Əsgərov, konsertmeysteri isə tarzən Abdul Haşımov olub.

Bu ansamblın repertuarında əsasən qədim xalq rəqsləri, rəng, dəraməd və xalq mahnıları, eləcə də bəzi bəstəkar mahnılarının ansambl üçün işləmələri yer alırdı. Ansamblın əsas üzvləri məktəbin müəllimlərindən ibarət idi. Onlardan Abbasqulu Nəcəfzadə (kamança ifaçısı, hazırda sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor), İlqar Şıxəliyev (tar), Akif Fərzullayev (saz), Böyükağa Dadaşov (saz), Səlim Quliyev (nağara, zərb), Rauf Zehniyev (ud), Ağamayıl Səfərov (balaban), Səadət Zeynalova (qanun), Rəhilə Ələkbərova (qanun) kimi ifaçıların adlarını qeyd edə bilərik.

“Dügah” folklor ansamblında balaban, ney, tütək, Azərbaycan və türk zurnası, saz, tar, kamança, ud, nağara, zərb, qanun kimi musiqi alətlərindən istifadə olunurdu. Bu musiqi alətlərini məharətlə dilləndirən ifaçılar muğam və xalq musiqisinə dərindən bələd olduqları üçün onların repertuarı da zəngin və maraqlı olub.

Məsələn, “Dügah” ansamblının ifasında “Qədim rəqs”, “Şüştər” rəngi, el havaları, “Mənim toyuğum”, “Sarı gəlin” kimi qədim xalq mahnıları, bəstəkar əsərlərindən Süleyman Ələsgərov “Xəyala dalarkən”, Ramiz Mirişlinin “Bayram axşamlarında” və bu kimi nümunələri qeyd edə bilərik. Folklor ansamblının repertuarında bəstəkar əsərlərinin də olması milli alətlərimizin professional musiqi üçün təbii səslənməsi və bəstəkarların folklor ansamblları ilə yaradıcılıq ünsiyyətindən irəli gəlirdi.

“Dügah” folklor ansamblında geyim olaraq kişilər üçün yanyaxa köynək, çuxa, qurşaq, qanun ifaçısı qadınlar üçün isə milli ornamentli paltar dəsti və milli naxışlardan ibarət kəlağayı və ya örpək istifadə edilirdi.

Kollektivə “Dügah” adının verilməsi Ələkbər Əsgərovun öz bəstəsi olan məşhur “Dügah” rəngi ilə bağlı idi və çıxışlar da məhz bu musiqi ilə açılırdı. Dövri mətbuatda da kollektivin çıxışlarının əks etdirən məqalələr dərc olunub. Musiqişünas Fuad Əziminin “Sumqayıt musiqiçiləri” kitabında (“Sumqayıt” nəşriyyatı. 1999, səh. 11) ansamblın bədii rəhbəri Ələkbər Əsgərov haqqında oxuyuruq: “Ə.Əsgərov uzun illərdir ki, S.Hacıbəyov adına Orta İxtisas Musiqi Məktəbində müəllimlik edir. Məktəbin müəllimlərindən ibarət “Dügah” folklor ansamblının fəaliyyətində Ələkbər müəllimin xidmətləri böyükdür. Bu bədii kollektiv respublikamızda nadir musiqi ansambllarından sayılır. Ansambl xalq musiqimizi yalnız instrumental şəkildə təbliğ edir...”.

“Dügah” folklor kollektivinin lent yazıları da “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin videotekasında və Radio fondunda qorunub saxlanılır.

***

Tarixinə nəzər saldığımız “Tello” və “Dügah” folklor kollektivləri qədim musiqi nümunələrinin mahir təbliğatçısı missiyasını layiqincə yerinə yetiriblər. Özfəaliyyət kollektivlərdən fərqli olaraq, bu folklor ansambllarının hər biri peşəkar təhsilli musiqiçilərdən ibarət olub. Amma, təəssüf ki, indi bu kollektivlər fəaliyyət göstərmir. Elə bizim folklor kollektivlərinin tarixini araşdırmaqda da əsas məqsədimiz onların fəaliyyətinin vacib tərəflərini aşkar və bərpa etməkdir. Bu və ya digər folklor kollektivlərinin tarixinin bir mənbədə toplanması milli irsimizin təbliği və tədqiqi istiqamətində də dəyərli bir mənbə olar.

O ki qaldı folklor ansambllarına bu günün baxışına, bu barədə AMK-nın nəzdində fəaliyyət göstərən Sumqayıt Musiqi Kollecinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səbinə Mehdiyeva ilə söhbətimizdən bəlli oldu ki, həmin ansamblların bərpası nəzərdə tutulub. Artıq “Dügah” ansamblının repertuarı üzərində iş aparılır. Hətta Səbinə xanım bu ansamblla son dövrlərdə bərpa edilən qədim musiqi alətlərinin, məsələn, rübab, çəng və başqalarının da daxil olmasını təklif edib. Çox gözəl ideyadır. Arzu edirik ki, uğurla başa gəlsin.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Beynəlxalq Uşaq Kitabı Şurası Andersen mükafatının qaliblərini elan edib

## Azərbaycanlı yazarın əsəri fəxri siyahıda dördüncü olub

Beynəlxalq Uşaq Kitabı Şurası (İBBY) Hans Xristian Andersen adına mükafatın 2022-ci il üçün qaliblərinin adlarını elan edib.

Mükafata bu il Fransa yazıçısı Mari Od Muray (Marie-Aude Murail) və Cənubi Koreyadan rəssam-illüstrator Süzi Li (Suzy Lee) layiq görülüblər.

İBBY tərəfindən təsis edilən Hans Xristian Andersen mükafatı uğrunda bu il 163 müəllif, illüstrator və tərcüməçi yarışıb.







Azərbaycanlı uşaq yazıçısı Solmaz Amanovanın “Cəsur ayı və dostları” kitabı təşkilatın fəxri siyahısında dördüncü olub.

Andersen mükafatı dünyanın ən nüfuzlu ədəbi mükafatlarından sayılır, hətta “Kiçik Nobel mükafatı” da adlanır.

Beynəlxalq Uşaq Kitabı Şurası (İBBY) 1953-cü ildə İsveçrədə, Sürix şəhərində yaradılıb. Hazırda İBBY-nin dünya üzrə 80 milli bölməsi fəaliyyət göstərir. Azərbaycandan F.Köçərli adına Respublika Uşaq Kitabxanası İBBY-nin rəsmi üzvüdür və təşkilatla əməkdaşlıq edir.

## Xatirə təqvimi — 31 mart – 4 aprel

### Azərbaycan

**31 mart 1861** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, bənzərsiz muğam ifaçısı, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861 – 20.4.1944) Şuşada doğulub. 1906-1912-ci illərdə Kiyev, Moskva və Varşavada ilk azərbaycanlı xanəndə olaraq ifası qrammofon valına yazılıb.

**31 mart 1871** – Görkəmli teatr rejissoru, Xalq artisti Aleksandr Aleksandroviç Tuqanov (1871-1960) Moskvada anadan olub. 1924-cü ildən Azərbaycan Dövlət Akademik Dram Teatrında, 1937-ci ildən Gənc Tamaşaçılar Teatrında baş rejissor işləyib. Azərbaycan Dövlət Teatr İnstitutunda dərs deyib.

**31 mart 1936** – Xalq artisti, bəstəkar Rafiq Fərzi oğlu Babayev (1936 – 19.3.1994) anadan olub. “Cəngi” folklor-caz kollektivini yaradıcıb. Filmlərə (“Anlamaq istəyirəm”, “Cin mikrorayonda”) musiqi bəstələyib.

**31 mart 1948** – Əməkdar rəssam İsmayıl Əsəd oğlu Məmmədov (1948 – 12.12.2016) anadan olub. Akademik Milli Dram, Musiqili Komediya teatrlarında quruluşçu rəssam işləyib.

**1 aprel 1905** – Əməkdar incəsənət xadimi Əsgər Cəfər oğlu İsmayılov (1905 – 13.11.1983) Tiflisdə doğulub. “Azərbaycanfilm” Kinostudiyasında bədii (“Qara daşlar”, “Kölgələr sürünür”) və sənədli (“Bakıdan Göygöldək”, 1947, ilk Azərbaycan rəngli filmi) filmlərin operatoru olub.

**1 aprel 1916** – Tanınmış şair Ənvər Əliverdi oğlu Əlibəyli (1916 – 7.5.1968) anadan olub. “Sənin adınla”, “İlk məhəbbət”, “Elə xoşbəxtəm ki!” və s. kitabların müəllifidir. Şeirlərinə mahnılar bəstələnib. Radio və Televiziya Verilişləri Komitəsinin sədri (1964-1968) işləyib.

**1 aprel 1921** – Əməkdar mədəniyyət işçisi Əminə Cəfər qızı Cəfərova (1921-2005) anadan olub. “Azərbaycanfilm”də səs texniki işləyib.

**1 aprel 1924** – Xalq artisti, müğənni Abdulla Murtuz oğlu Babayev (1924-2015) Naxçıvan MR Babək rayonunun Tumbul kəndində anadan olub.

**1 aprel 1929** – Məşhur xanəndə Ələsgər Baba oğlu Abdullayev (Şəkili Ələsgər; 1866–1929) vəfat edib.

**1 aprel 1933** – Yazıçı-ssenarist, filoloq Vitali Abramoviç Kalmanovski (1933 – 16.6.2014) Bakıda anadan olub. “Bir dəfə Bağdadda” operettasının (musiqi E.Sabitoğlu) libretto müəllifidir.

**1 aprel 1949** – Əməkdar elm xadimi, dilçi alim Nizami Manaf oğlu Xudiyev (1949 – 25.5.2021) Naxçıvan MR Şahbuz rayonunda anadan olub. “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri, Milli Məclisin deputatı olub.

**1 aprel 1954** – Əməkdar incəsənət xadimi, opera müğənnisi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 5.1.1884 – 1954) vəfat edib.

**1 aprel 1980** – Görkəmli aktyor, Xalq artisti İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev; 6.1.1907 – 1980) vəfat edib.

**1 aprel 1981** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev; 19.5.1910 – 1981) vəfat edib. Respublika Yazıçılar İttifaqının sədri (1938-1939), kinematoqrafiya naziri (1945-1948) olub.

**1 aprel 2014** – Xalq yazıçısı İsa Mustafa oğlu Hüseynov (Muğanna; 12.6.1928 – 2014) vəfat edib. “Tütək səsi”, “Nəsimi” və s. filmlərin ssenari müəllifidir.

**2 aprel 1870** – Şair Azər Məcid oğlu İmaməliyev (1870 – 8.8.1956) Bakının Buzovna kəndində doğulub. Felyetonlar yazıb, fars dilindən tərcümələr edib.

**2 aprel 1931** – Xalq rəssamı Altay Əmir oğlu Hacıyev (1931 – 12.2.2019) anadan olub. Qrafika nümunələrinin, portretlər silsiləsinin (“Tomris”, “Məhsəti Gəncəvi”, “Sara Xatın”, “Xurşidbanu Natəvan”, “Aşıq Pəri”) və s. əsərlərin müəllifidir.

**2 aprel 1932** – Ədəbiyyatşünas, yazıçı, tərcüməçi Xeyrulla Salman oğlu Əliyev (1932–2021) Cəlilabad rayonunun Göytəpə qəsəbəsində doğulub. Milli Məclisin (1991-1995) üzvü, Mədəniyyət və dini əqidə məsələləri komissiyasının sədr müavini olub.

**3 aprel 1908** – Azərbaycanın ilk akademik-filosofu Heydər Nəcəf oğlu Hüseynov (1908-1950) İrəvanda doğulub. Fəlsəfi və ədəbi fikir tariximizə dair tədqiqatların müəllifidir. İki dəfə Dövlət (Stalin) mükafatına layiq görülüb.

**3 aprel 1922** – Tanınmış tarixçi və arxeoloq, dünyanın ən qədim insan məskənlərindən olan Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı Məmmədəli Murad oğlu Hüseynov (1922-1994) Qazax rayonunun Molla Cəfərli kəndində anadan olub.

**3 aprel 2008** – Əməkdar artist Şəfiqə Qasım qızı Qasımova (5.12.1924 – 2008) vəfat edib. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb, filmlərdə çəkilib.

**4 aprel 1898** – Mədəni-maarif xadimi Məryəm Teymur qızı Bayraməlibəyova-Məlik-Yeqanova (1898-1987) Lənkəranda anadan olub. 30-40-cı illərdə repressiyaya məruz qalıb, sürgündə yaşayıb.

**4 aprel 1913** – Xalq artisti Əli Yusif oğlu Zeynalov (1913 – 4.1.1988) Salyanda doğulub. İrəvan Azərbaycan Teatrında, Akademik Milli Dram Teatrında çalışıb. “Kölgələr sürünür”, “Bir qalanın sirri”, “Həyat bizi sınayır” və s. filmlərdə çəkilib, filmlərdə aparıcı rolları səsləndirib.

**4 aprel 1931** – Teatrşünas, professor, AMEA-nın müxbir üzvü İnqilab Saleh oğlu Kərimov (1931 – 22.7.2011) Göyçayda anadan olub.

**4 aprel 1935** – Xalq artisti Muxtar Qəmbər oğlu Maniyev (1935 – 22.12.2016) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub. “Azərbaycanfilm” kinostudiyasında 50-dən çox filmdə maraqlı obrazlar yaradıb.

### Dünya

**31 mart 1732** – Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 1732-1809) anadan olub.

**31 mart 1914** – Meksika şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1990) laureatı Oktavio Pas (Octavio Paz; 1914-1998) anadan olub.

**1 aprel 1809** – Rus yazıçı-dramaturqu Nikolay Vasilyeviç Qoqol (Yanovski; 1809 - 4.3.1852) anadan olub. “Ölü canlar” romanı, “Müfəttiş”, “Evlənmə” pyesləri və s. əsərlərin müəllifidir.

**1 aprel 1873** – Rus bəstəkarı, pianoçu Sergey Vasilyeviç Raxmaninov (1873-1943) anadan olub. 1917-ci ildə Amerikaya mühacirət edib.

**2 aprel 1805** – Danimarkalı yazıçı, dünya şöhrətli nağılbaz Hans Xristian (Christian) Andersen (1805-1875) anadan olub. Andersenin xatirəsinə ehtiram olaraq 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurasının (İBBY) təşəbbüsü ilə 2 aprel “Beynəlxalq Uşaq Kitabı Günü” elan olunub.

**2 aprel 1840** – Fransız yazıçısı, naturalizm ədəbi cərəyanının nəzəriyyəçisi Emil Zolya (Emile Zola; 1840 - 29.9.1902) anadan olub. İyirmi romandan ibarət “Ruqonlar və Makkarlar” epopeyasının müəllifidir.

**3 aprel 1783** – Amerika yazıçısı, tarixçi Vaşinqton İrvinq (Washington İrving; 1783-1859) anadan olub.

**3 aprel 1918** – Ukrayna yazıçısı Oles (Aleksandr) Qonçar (1918-1995) anadan olub.

**3 aprel 1924** – Amerika aktyoru Marlon Brando (1924-2004) anadan olub. Filmləri: “Limanda” (“Oskar”, 1954), “Xaç atası” (“Oskar”, 1972), “Parisdə sonuncu tanqo” və s.

**4 aprel 1818** – İngilis yazıçısı, macəra romanlarının (“Başsız atlı”) müəllifi Mayn Rid (Thomas Mayne Reid; 1818-1883) anadan olub.

**4 aprel 1932** – Rus kinorejissoru və ssenaristi Andrey Tarkovski (1932-1986) anadan olub. “İvanın uşaqlığı”, “Andrey Rublyov”, “Stalker” və s. filmlərin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

№25 (1898)
1 aprel 2022
www.medeniyyet.az

# Vyanada “Qarabağın ruhu – sülhə doğru uzun yol”

## Reza Deqatinin fotolarından ibarət sərgi açılıb

əvvəli səh. 1-də

Azərbaycan Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Emin Hüseynov da fotosərginin əhəmiyyətindən bəhs edib. O, Qarabağda işğal, faciə, vandalizm dövrünün artıq sona çatdığını və azad edilmiş torpaqlarda aparılan quruculuq işlərinin bütün dünyaya sülh, əməkdaşlıq, humanizm çağırışı olduğunu bildirib.

Reza Deqati çıxışında bildirib ki, 40 ildən artıqdır dünyanın müxtəlif yerlərində müharibə və münaqişə bölgələrindən fotolar çəkir. Lakin o özünü hərbi fotojurnalist deyil, sülh carçısı hesab edir. O, müharibə və münaqişələr nəticəsində dağılmış məkanları və insan iztirablarını çəkməklə bəşəriyyəti müharibə və qırğınlardan çəkinməyə çağırır.

Fotoreportyor bildirib ki, intensiv şəkildə səfər etdiyi ölkələrdən biri də Azərbaycan olub və Qarabağda törədilmiş cinayətləri, insanlıq faciələrini fotolara köçürərək bütün dünyaya nümayiş etdirməyi qarşısına məqsəd qoyub. Çünki otuz ilə yaxın davam edən işğala dünya ictimaiyyəti susqunluq nümayiş etdirib. İncəsənət və mədəniyyətin gücünə inanan müəllif Azərbaycan haqqında həqiqətləri fotoların dili ilə dünyaya çatdırmaq istəyir.





Reza Deqati 2020-ci ildə 44 günlük müharibədəki Zəfərdən sonra Qarabağa ilk səfər edən xarici fotojurnalist kimi burada gördüklərindən danışaraq, erməni iddialarına da cavab verib: “Bu torpaqların öz vətəni olduğunu iddia edənlər niyə 30 il boyunca həmin əraziləri məhv etməklə məşğul olublar?”.

Müəllif sonra nümayiş etdirilən fotoların tarixçəsi və “nəql etdiyi” hekayə barədə sərgi iştirakçılarına məlumat verib. Bildirib ki, son 30 ildə bu ərazilər işğala məruz qalsa da, şəhər və kəndlər dağıdılsa da, münaqişə başa çatandan sonra Azərbaycan böyük quruculuq işlərinə başlayaraq, ağrı-acılı günləri arxada buraxır və bərpa işləri sayəsində uğurlu gələcəyə doğru irəliləməkdədir.

Fotojurnalist deyib ki, fotosərgi ilk dəfə Vyana şəhərində nümayiş olunur və onun məqsədi bu sərgini Avropa və Amerikanın böyük şəhərlərində təqdim etməkdir.

Qeyd edək ki, aprelin 14-dək davam edəcək sərgidə 100-dən artıq foto, fotolar əsasında hazırlanmış videoçarxlar, stendlər və kitablar nümayiş olunur.

# Heydər Əliyev Sarayında xeyriyyə konserti

Mayın 9-da Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Rəqs Ansamblının xeyriyyə konserti keçiriləcək.

“Mənim Azərbaycanım” adlı konsert Mədəniyyət Nazirliyinin təşkilatçılığı, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası və Heydər Əliyev Sarayının dəstəyi ilə reallaşacaq.

Azərbaycan Dövlət Rəqs Ansamblının “Mənim Azərbaycanım” konsert proqramı ilk dəfə 2017-ci ildə sənətsevərlərə təqdim olunub.

Məşhur xoreoqraf, Rusiyanın Xalq artisti Dikalu Muzakayevin bədii rəhbərliyi ilə ərsəyə gələn proqrama Azərbaycanın milli rəqsləri, eləcə də “Koroğlu” dastanının motivləri əsasında hazırlanmış birpərdəli milli balet daxildir. Azərbaycan Dövlət Rəqs Ansamblı bu proqramla Moskvada və İstanbulda da çıxış edib.

Heydər Əliyev Sarayında keçiriləcək konsertdən əldə olunacaq vəsait şəhid ailələri və müharibə əlillərinin təminatı üçün “YAŞAT” Fonduna ianə ediləcək.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar…

### 74 il əvvəl...

**3 aprel 1948-ci ildə** ABŞ Konqresi “Marşall planı”nı qəbul edib. ABŞ-ın dövlət katibi Corc Marşallın müəllifi olduğu plan II Dünya müharibəsində iqtisadiyyatı iflas etmiş Avropa ölkələrinə geniş maliyyə yardımı nəzərdə tuturdu. 17 ölkə bu yardımdan yararlandı. SSRİ sosialist təmayüllü ölkələrin yardım almasına imkan vermədi. Plan çərçivəsində 4 il ərzində Qərbi Avropa iqtisadiyyatının dirçəldilməsinə 13 milyard dollar (ABŞ-ın o vaxtkı ÜDM-inin 5 faizi həcmində) vəsait ayrıldı.

### 73 il əvvəl...



**4 aprel 1949-cu ildə** Vaşinqtonda NATO-nun (North Atlantic Treaty Organization – Şimali Atlantika Müqaviləsi Təşkilatı) yaranmasına dair saziş imzalanıb. Müqaviləni 12 dövlət – ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq, Kanada, Danimarka, İslandiya, Norveç və Portuqaliya imzalamışdı. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR, 1982-ci ildə İspaniya alyansa üzv oldu. SSRİ və sosialist düşərgəsinin dağılmasından sonra NATO-nun sıraları genişləndi və hazırda 30 üzvü var.

### 62 il əvvəl...

**4 aprel 1960-cı ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Seneqal müstəqilliyini bəyan edib.

### 54 il əvvəl...



**4 aprel 1968-ci ildə** Amerikada qaradərililərin hüquqlarının müdafiəçisi Martin Lüter Kinq irqçilər tərəfindən qətlə yetirilib. Baptist pastoru olan M.Lüter Kinq 1964-cü ildə Nobel sülh mükafatına layiq görülmüşdü.

### 40 il əvvəl...

**2 aprel 1982-ci ildə** Böyük Britaniya ilə Argentina arasında Folklend (Malvin) adaları uğrunda müharibə başlayıb. 1832-ci ildə Britaniya imperiyasının ərazisi elan edilmiş Folklend adaları Argentinanın dəniz sərhədi (Atlantik okeanı) yaxınlığında yerləşir. Argentinanın adaları özünə birləşdirmək cəhdi uğursuz olub və müharibə iki ay sonra Britaniyanın qələbəsi ilə başa çatdı.

### 31 il əvvəl...

**2 aprel 1991-ci ildə** SSRİ-də mal və məhsullara qiymətlər sərbəst buraxılıb. Qiymətin dövlət tərəfindən tənzimlənməsi aradan qaldırılıb.

### 30 il əvvəl...

**1 aprel 1992-ci ildə** Azərbaycanla Niderland Krallığı arasında diplomatik münasibətlər qurulub. Niderland Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımışdı.

**2 aprel 1992-ci ildə** Azərbaycan Respublikası Çin Xalq Respublikası (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb), Danimarka və Yunanıstanla (hər ikisi Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıyıb) diplomatik münasibətlər qurub.

**4 aprel 1992-ci ildə** Azərbaycanla Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasına dair protokol imzalanıb.

### 29 il əvvəl...

**2 aprel 1993-cü ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal ediblər. 27 ildən artıq işğal altında qalan Kəlbəcər 2020-ci il noyabrın 25-də, Azərbaycanın 44 günlük müharibədə tarixi Qələbəsinin nəticəsi olaraq azad edildi.

**Hazırladı: V.Orxan**

# Parisdə “Türk Mədəniyyəti və Dilləri Günü”

Fransa Şərq Dilləri və Sivilizasiyaları İnstitutunda (İNALCO) “Türk Mədəniyyəti və Dilləri Günü”nə həsr edilmiş tədbir keçirilib.



Ölkəmiz Parisdəki səfirliyimizin dəstəyi və “Caspian Research Center” Assosiasiyasının təşkilatçılığı ilə tədbirdə təmsil olunub.

“Türk Mədəniyyəti və Dilləri Günü” ADƏT dərnəyinin təşkilatçılığı ilə İNALCO-da təhsil alan türk ölkələri tələbələri tərəfindən qeyd edilib. Tədbirdə türk ölkələrinin milli adət-ənənələri təqdim olunub.

Azərbaycan stendində ölkəmizin tarixi, mədəniyyəti, mətbəxi haqqında, eləcə də Xocalı soyqırımına dair Heydər Əliyev Fondu tərəfindən fransız dilində dərc edilmiş kitablar nümayiş olunub.

Tədbirə qatılan səfirliyin əməkdaşı Günel Zülfüqarova tələbələrə ölkəmizin tarixi və mədəniyyətindən danışıb. “Caspian Research Center” Assosiasiyasının təsisçilərindən olan Adela Naibova milli rəqsimizi təqdim edib.

“Türk Mədəniyyəti və Dilləri Günü” çərçivəsində Azərbaycan paxlava və şəkərburası da daxil olmaqla, türk ölkələrinin milli şirniyyatları İNALCO tələbələrinə təqdim olunub.

Qeyd edək ki, İNALCO-da müxtəlif dərnək üzvləri olan tələbələrin təşəbbüsü ilə keçirilən ənənəvi tədbir koronavirus pandemiyası ilə bağlı iki il aradan sonra təşkil olunub.

# Bakıda Frankofoniya Günləri başlayır

Aprelin 1-də Bakıda növbəti Frankofoniya Günlərinə start verilir. Bu münasibətlə martın 30-da Bakı Fransız Liseyində 6 ölkənin Azərbaycandakı səfirlərinin iştirakı ilə mətbuat konfransı keçirilib.



Mətbuat konfransında bildirilib ki, aprelin 22-dək davam edəcək Frankofoniya Günləri Fransa, Latviya, Litva, Mərakeş, Çex Respublikası və Meksikanın ölkəmizdəki səfirliklərinin iştirakı ilə reallaşacaq. Layihə çərçivəsində səfirliklər tərəfindən mədəni tədbirlər keçiriləcək.

Frankofoniya Günlərində 2022-ci ildə “Avropanın Mədəniyyət Paytaxtı” olan Kaunas (Litva) şəhərinə həsr olunan fotosərgi, Rövşən Ağayevin “Fransız dili dərsləri” kitabının təqdimatı, “Beynəlxalq müstəvidə istifadə olunan dillərin arasında fransız dilinin müxtəlifliyi” mövzusunda konfrans və Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti və Naxçıvan Dövlət Universiteti arasında natiqlik müsabiqəsi təşkil olunacaq. Frankofoniya Günlərində 10 filmin nümayişi də nəzərdə tutulur.

Qeyd edək ki, hər il Frankofoniya Günləri dünya miqyasında – fransızdilli ölkələrdə, eləcə də fransız dilinin tədris edildiyi və öyrənildiyi ölkələrdə, o cümlədən Azərbaycanda qeyd olunur. Bu il layihə “Gələcəyin frankofoniyası” mövzusuna həsr edilib.

# Ölkəmiz Kaliforniyada multikultural festivalda təmsil olunub

ABŞ-ın Kaliforniya ştatının Santa Klara rayonundakı Mauntin Vyu şəhərində keçirilən multikultural festivalda Azərbaycan da təmsil olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Şimali Kaliforniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ACSNC) qatıldığı festivalda Ukrayna, Meksika, Türkiyə, Peru, İsrail və başqa ölkələrə bağlı təqdimatlar olub.



Cəmiyyətin təşkil etdiyi Azərbaycan guşəsində ölkəmiz haqqında məlumat posteri, milli geyimlər, xalçalar, musiqi alətləri, suvenirlər, milli mətbəx nümunələri təqdim olunub. Soydaşlarımız guşənin önündə Azərbaycan rəqslərini, eləcə də birlik və həmrəylik rəmzi olan “Yallı” rəqsini nümayiş etdiriblər.

Azərbaycan guşəsinin proqramı festival ziyarətçilərinin marağına səbəb olub. Milli geyimli cəmiyyət üzvləri amerikalılara ölkəmiz haqqında məlumat verib, onlara Novruz şirniyyatlarının hazırlanma qaydasını nümayiş etdiriblər. Amerikalılar halay çəkən soydaşlarımızla birlikdə rəqs ediblər.

Yerli sakinlər ölkəmizə turistik səfər və Azərbaycanın görməli yerləri haqqında məlumatlarla da maraqlanıblar.

# Brüs Villis kino karyerasını bitirir

## Nitqində qüsur əmələ gəlib



Amerika aktyoru Brüs Villis (Walter Bruce Willis) sənət karyerasını başa vurub. Bu barədə onun ailəsi məlumat yayıb.

Bildirilir ki, 67 yaşlı Hollivud ulduzunun kinodan getməsi səhhətində ortaya çıxan problemlə bağlıdır. Aktyora afaziya (nitq pozğunluğu) diaqnozu qoyulub.

1955-ci il martın 19-da anadan olan Brüs Villis “Kriminal qiraət”, “Beşinci element”, “Altıncı hiss” və s. məşhur filmlərdə çəkilib.

# BMT: Ukraynadan 4 milyondan çox insan qaçqın düşüb

Rusiyanın Ukraynada başladığı hərbi əməliyyatlar nəticəsində bu ölkədən qaçqın düşən insanların sayı 4 milyonu ötüb. Bu, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının rəsmi statistikasıdır. Gerçəkdə isə ölkəni tərk edən ukraynalıların sayı daha çoxdur.

BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının saytında yerləşdirilmiş məlumata əsasən, fevralın 24-dən martın 29-dək Ukraynanı tərk edən qaçqınların sayı 4 milyon 19 min nəfərə çatıb. Bu müddətdə ən çox Polşaya (2 milyon 336 min), Rumıniyaya (609 min), Moldovaya (387 min) və Macarıstana (365 min) ukraynalı qaçqın gəlib.



Müharibə nəticəsində ev-eşiklərini tərk edib daxili məcburi köçkün vəziyyətində olan insanların sayı isə 10 milyona yaxındır.

# Avrozonada iqtisadi inam indeksi minimuma enib

Mart ayında Avrozonada iqtisadi inam indeksi 114,1-dən 108,5-ə düşüb.

İqtisadi inam indeksinin azalması və qiymətlərin artmasının gələcək aylarda istehlak və investisiyalara təzyiq göstərəcəyi gözlənilir. Avrozonada məşğulluq indeksi də rekord səviyyədə aşağı düşüb, inflyasiya gözləntiləri isə 1985-ci ildən bəri ən yüksək səviyyədədir.

Avropa Mərkəzi Bankının prezidenti Kristin Laqard deyib ki, Rusiya-Ukrayna gərginliyi iqtisadi artım üçün risklərə səbəb olur və iqtisadi perspektivdə qeyri-müəyyənliklər yaradır.

Həmçinin artan ərzaq qiymətlərinin və tədarük zəncirindəki çətinliklərin inflyasiyanın daha da yüksəlməsinə səbəb olacağı proqnozlaşdırılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**Tiraj:** 5072. **Sifariş:** 878

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641